№ 254 ISSN 1027-3875 30 sentyabr 2008

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Əminə M.Rzaqızı
Fotomüxbir:
Xeyrulla HACƏLİYEV

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Amina M. Rzaqizi
Photoreporter:
Kheyrulla HACALIYEV

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN

Bu nömrədə

İCTİMAİ SORĞULAR
"XƏZƏR"İ YENƏ DƏ BİRİNCİ ETDİ 7






Yeni tədris ilinin açılış mərasimi 4

AZƏRBAYCAN MÜƏLLİMLƏRİNİN XIII QURULTAYI 9

HƏYATIMDA ŞÜURLU DÖNÜŞ 14





"Студенческий меридиан" "Xəzər Xəbər"də 20

TƏLƏBƏ SORĞUSU 13



TEYYUB QURBAN

QOŞMALAR 24

USAQ DÜNYASI



34

YENİ TƏDRİS İLİNİN

Sentyabrın 15-də Xəzər Universitəsində yeni dərs ilinin açılış mərasimi oldu. Mərasimə toplaşanların – tələbələrin, valideynlərin, müəllimlərin, bir sözlə, hamının çöhrəsində yeni dərs ilinin doğurduğu sevinc hissləri aydın sezilir, şən əhval-ruhiyyə hökm sürürdü. Lakin müvəffəqiyyətlə qəbul imtahanları verib universitəyə daxil olmuş birinci kurs tələbələri daha sevincək, daha şən görünürdülər. Axı onların həyatında neçə illərdən bəri həsrətlə gözlədikləri hadisə baş vermişdi: indi onlar sevib seçdikləri Xəzər Universitəsinin tələbəsi idilər.

Mərasimin aparıcıları – humanitar və sosial elmlər fakültəsinin ikinci kurs tələbələri Elnarə Əliyeva və Orxan Abdullayev yeni dərs ilinin başlanması münasibətilə hamını, xüsusən, "Xəzər" ailəsinə yeni daxil olan I kurs tələbələrini təbrik edəndən sonra Xəzər Universitəsinin qurucusu və rektoru, professor Hamlet İsaxanlını xitabət kürsüsünə dəvət etdilər. Rektor mərasim iştirakçılarına müraciətlə dedi:



Əziz tələbələr, əziz valideynlər, əziz müəllimlər!

Dərs ilinin başlanması münasibətilə hamınızı təbrik edirəm, hamınıza qarşıdakı tədris ilində təhsildə böyük uğurlar, can sağlığı, xoşbəxtlik arzulayıram. Bu gün xüsusilə birinci kurs tələbələrinin böyük bayramıdır. Onların həyatında dönüş nöqtəsidir, onlar artıq orta məktəblə vidalaşmış, ali məktəb tələbəsi olmuşlar, müasir dövrün tələblərinə cavab verən mütəxəssis olmağa hazırlaşırlar. Və Xəzər Universitəsi də məhz bu məqsədlə yaradılmışdır ki, bizdə təhsil alan gənclər dünyanın hər bir yerində çalışıb, iş qura bilsinlər, öz ailələrini, xalqımızı, Vətənimizi ləyaqətlə təmsil etsinlər. Bu məqsədə nail olmaq üçün yeganə yol – çox müasir və keyfiyyətli, dünya ilə səsləşən, dünyanın qabaqcıl ölkələrindəki qabaqcıl universitetlərdə tətbiq edilən təhsil sistemini həyata keçirməkdən ibarətdir. Bilirsiniz ki, bu, sadə iş deyil. Bunun üçün yüksək keyfiyyət tələb olunur. Yüksək keyfiyyət çox şeylərin üstündə qurulur: yüksək səviyyəli elm adamları, müəllimlər, ciddi müasir proqramlar, geniş maddi baza, kitabxanalar, laboratoriyalar və ilaxır. Amma bunların da əsasında çox ciddi, çox təmiz təhsil modeli dayanır. Çünki təhsilin məhz həqiqət üzərində, doğruçuluq üzərində, ciddiyyət üzərində qurulduğu yerdə keyfiyyətdən danışmaq olar. Orda heç kim heç kimi aldada bilməz. Heç kim heç kimi aldatmaq istəmir. Hamı bir-birinə yardım edir. Hamı öz bilik səviyyəsini bilir. İmtahan verən də biliyi nəyə layiqdirsə, o balı da alır. Bir bal aşağı, bir bal yuxarı olmaz.

Bu il Xəzər Universitəsi müəyyən mənada 3 yaşından doktoranturaya qədər, yəni fasiləsiz təhsil verən modeli tamamladı. Artıq bu il Xəzər Universitəsinin nəzdindəki "Dünya" məktəbinin 1-ci sinifdən 11-ci sinfə qədər şagirdləri var. 3 yaşından uşaqlar məktəbə qədər hazırlığa gəlirlər. Xəzər Universitəsinin özündə isə elmin bir çox sahələrində bakalavr, magistr və doktorluq səviyyəsində tədris gedir. Tələbələrimizin xeyli qismi dünyanın digər ölkələrindən gəlir. Yəni Xəzər Universitəsi faiz etibarilə nəinki Azərbaycanda, ümumiyyətlə böyük regionda – Yaxın Şərqdə, Rusiyanın cənubunda, Orta Asiyada, bütün bu ölkələrdə ən çox xarici tələbə oxutduran ali

AÇILIŞ MƏRASİMİ

məktəbdir. Bizə bu gün Amerika, Kanada, Qərb ölkələri, bütün yaxın Şərq ölkələri və Koreyadan başlamış hər yerdən tələbələr gəlir. Və siz də görəcəksiniz ki, sizin övladlarınızın arasında müxtəlif dinə, müxtəlif irqə, müxtəlif dilə və ölkəyə mənsub tələbələr oxuyurlar. Bu isə onlara dünyanın heç bir yerinə getmədən, Azərbaycanda oxuya-oxuya dünya ilə bərabər olmağa kömək edir, daha geniş dünyagörüşü qazanmağa imkan yaradır.

Əziz tələbələr, heç şübhəniz olmasın ki, sizin ən gözəl, ən səviyyəli təhsil almağınız üçün biz əlimizdən gələni edəcəyik. Eyni zamanda, Xəzər Universitəsinin həm Amerikada, həm də Avropada bir çox universitetlərlə bağladığı tələbə mübadiləsi müqavilələri əsasında yaxşı tələbələrimizi 3-cü kursdan başlayaraq həmin universitetlərə göndərir, onlardan da tələbə qəbul edirik. Bunun üçün, əlbəttə ki, müsabiqədən keçmək lazımdır. Bir sözlə, sizləri qarşıda gözəl, yaxşı mənada həyəcanlı günlər gözləyir.

Xəzər Universitəsi Bakıda 3 nöqtədə yerləşir. Siz dərslərinizin çox hissəsini bu binada keçəcəksiniz. Siz Xəzər Universitəsini seçməzdən əvvəl, əlbəttə ki, bu ali təhsil ocağı haqqında artıq məlumatınız var idi. Amma bu gün artıq siz buranın tələbəsisiniz. Siz içəri dəvət olunacaqsınız, tələbə biletləriniz paylanacaq, sizin hər addımınıza kömək edəcəklər. Qaydalarla tanış olacaqsınız. Çünki burdakı qaydalar digər universitetlərin qayda-qanunlarından bir az fərqlənir. Bu qaydalar tələbələr üçün daha yaxşı, daha üstün qaydalardır. Bilirsiniz ki, bizim universitə ingilisdillidir. Yəni hər kəs ixtisasından asılı olmayaraq, ingilis dilini mükəmməl öyrənməlidir. Çünki ingilis dili



dünya dilidir. Dünyanın hər tərəfində danışılır. Dünyanın hansı tərəfinə getsəniz, o dil sizə kömək edəcək. Harada işləmək istəsəniz, orda sizə yardım edəcək. Ona görə hər kəs ingilis dilini mükəmməl öyrənməlidir. Demək olar ki, dünyanın aparıcı dillərinin də bir çoxu burda tədris olunur. O cümlədən, öz ixtisasınızla bərabər ana dilimizi, mədəniyyətimizi, Azərbaycanı geniş öyrənəcəksiniz.

Bu gün, universitəmizdəki qaydaya görə, sizin ingilis dili səviyyənizi müəyyənləşdirmək və müvafiq qruplara bölmək üçün yerləşdirmə testindən keçəcəksiniz. Ola bilsin, ingilis dilini yüksək səviyyədə bilənlərlə yanaşı, ingilis dilini heç bilməyənlər, başqa xarici dili bilənlər var ki, onlar sıfırdan başlayacaqlar, amma çox sürətlə gəlib digər yoldaşlarına çatacaqlar. Ondan sonra siz öz fakültənizin dekanları ilə gö-





rüşəcək və cədvəllərinizi alıb dərsə başlayacaqsınız. Biz həmişə istəyirik ki, tələbələrimiz yaxşı oxumaqla bərabər, fəal olsunlar. Bizim universitetin jurnalı var: "Xəzər Xəbər", ayda iki dəfə, üç dildə çıxır – Azərbaycan, rus, ingilis dillərində. Siz ora öz yazılarınızı verə bilərsiniz, öz fikirlərinizi yaza bilərsiniz, bu sizin jurnaldır. Hər semestr biz tələbələrlə anonim sorğu aparırıq. Yəni hansı fikrin kimə məxsus olduğunu heç kəs bilmir. Orada universitə haqqında, bütün şöbələr, fakültələr, müəllimləriniz haqqında fikirlərinizi yazırsınız və biz bu fikirləri ümumiləşdirib, nəticələr çıxarırıq.

Əziz valideynlər, mən istəyirəm ki, valideyn olaraq tələbələrimizin tədris prosesi ilə maraqlanmağa davam edəsiniz. Tələbələrimizə Azərbaycan dilində yaddaş kitabçası veriləcəkdir, siz hamınız bu kitabça ilə tanış olun ki, tələbədən nələr tələb olunduğunu biləsiniz. Çünki tələbə öz vəzifələrini yaxşı bilməsə, geri qala bilər. Beləliklə də, istərdim ki, siz tələbələrə, onların problemlərinin həll olunmasına yardım edəsiniz. Biz isə onlara yüksək təhsil verməyi öhdəmizə götürürük.


Bir daha hamınızı təbrik edirəm.

Sonra rektor 500-dən yuxarı bal toplamış tələbələrə – Namazova Mehriban (Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsi, 535 bal), Abbaslı Mələk (İqtisadiyyat və menecment , 630 bal), Abdullabəyli Nəcəf (İqtisadiyyat və menecment, 544 bal), Mikayılov Nurlan (İqtisadiyyat və menecment, 619 bal), Baxşıyeva Nigar Sadıq qızı (İqtisadiyyat və menecment, 563 bal), Hümbətova Nərmin (İqtisadiyyat və menecment, 567 bal), Məhərrəmov Kənan (İqtisadiyyat və menecment, 557 bal), Xəlilov Rəşad (İqtisadiyyat və menecment, 550 bal), Məmmədova Şahnaz (İqtisadiyyat və menecment, 542 bal), Həsənəliyeva Natəvan (Humanitar və sosial elmlər, 518 bal), Məmmədova Rəhimə (Humanitar və sosial elmlər, 534 bal) və Cabarova Məryəmə (Humanitar və sosial elmlər, 623 bal) tələbə vəsiqələrini təqdim etdi.

Daha sonra tələbələr auditoriyalara dəvət olundular. Birinci kurs tələbələri ilə ümumi söhbət aparıldı, onlara tələbə vəsiqələri təqdim olundu, universitənin tarixi, daxili qaydalar haqqında məlumat verildi və ingilis dilindən yerləşdirmə (plaçement) imtahanı keçirildi.

Beləliklə, Xəzər Universitəsində daha bir yeni dərs ili başlandı...

"Xəzər Xəbər"



UNİVERSİTƏ XƏBƏRLƏRİ

İCTİMAİ SORĞULAR "XƏZƏR"İ YENƏ DƏ BİRİNCİ ETDİ

İctimai Televiziyanın apardığı sorğuların nəticələrinə və 2007-2008-ci tədris ilinin yekunlarına görə ***Xəzər Universitəsi Azərbaycanda da ilin ən yaxşı özəl universiteti adına layiq görülmüşdür.*** Eyni ada özəl universitetlər arasında Qafqaz Universiteti də sahib olmuşdur. Həmçinin, iki dövlət universitetinin – Bakı Dövlət Universiteti və Azərbaycan Prezidenti yanında İdarəetmə Akademiyasının da qalib olduğu bu nominasiyada mükafatlar təntənəli şəkildə universitetlərin rəhbərlərinə təqdim edilmişdir..


İCTİMAİ

1

XƏTT

2007 / 2008 - ci tədris ilinin yekunlarına və İctimai Televiziyanın apardığı sorğuların nəticələrinə görə **Xəzər Universiteti** ilin ən yaxşı özəl universiteti adına layiq görülmüşdür

İctimai Televiziyanın İdarə Heyətinin Sədri

AZƏRBAYCAN GƏNCLƏRİNİN V FORUMUNA HAZIRLIQ



Sentyabrın 18-də Nizami Rayon İcra Hakimiyyətinin akt zalında Azərbaycan gənclərinin V Forumuna hazırlıq çərçivəsində növbəti toplantı keçirilmişdir. Rayon Gənclər və İdman İdarəsinin rəisi Qiyas Nəcəfov rəhbərlik etdiyi qurumun gördüyü işlər barəsində məlumat vermişdir. İdarə rəisi qeyd etmişdir ki, "Gənclər siyasəti haqqında Dövlət proqramı"na (2005-2009-cu illər)" uyğun olaraq, nəzərdə tutulan müddəalara əsasən bir sıra tədbirlər hazırlanıb həyata keçirilmişdir.

Toplantıda Xəzər Universitəsinin tələbəri adından Tələbə Məclisinin prezidenti Sərxan Məmmədov çıxış etmişdir.

S.Məmmədov Azərbaycan gənclərinin təşkilatlanmasından, gənclərə göstərilən dövlət qayğısından, dövlət idarəçiliyində gənclərin rolundan söz açmışdır. O, Azərbaycan gənclərinin əvvəlki forumlarının keçirildiyi siyasi-tarixi şəraitdən bəhs edərək söyləmişdir ki, gənclərimiz öz fəaliyyətlərində daim xalq və dövlət mənafeyini əsas tutmuş, hər bir forumun qarşıya qoyduğu vəzifələri layiqincə yerinə yetirməyə səy göstərmişlər.

Toplantının sonunda Azərbaycan Respublikası Gənclərinin V Forumuna 52 nəfər nümayəndə seçilmiş və qətnamə qəbul olunmuşdur.

Xəzər Universitəsindən Tələbə Məclisinin prezidenti Sərxan Məmmədov, Tələbə Məclisinin vitse-prezidenti Tahirə İsmayılova, Tələbə Məclisinin idarə heyətinin üzvləri İsgəndər Ağayev və Emin Rüstəmov foruma nümayəndə seçilmişlər.

"Xəzər Xəbər"

AZƏRBAYCAN MÜƏLLİMLƏRİNİN XIII QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay iştirakçıları!

Əziz müəllimlər və təhsil işçiləri!

Sizi - Azərbaycan müəllimlərinin XIII qurultayının iştirakçılarını səmimi-qəlbdən salamlayır, hər bir Azərbaycan müəlliminə, ölkənin bütün təhsil işçilərinə ən xoş arzularımı yetirirəm.

Bu gün Azərbaycan yüksək iqtisadi inkişaf templərinə görə dünyada unikal mövqe tutan ölkələrdən biridir. Həyata keçirdiyimiz iqtisadi islahatların beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilməsi, 700 mindən artıq iş yerinin açılması, ümumi daxili məhsulun son dörd ildə iki dəfə artması, özəl sektorun qazandığı müvəffəqiyyətlər ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoymasından xəbər verir.

Bütün bu nailiyyətlər Azərbaycan təhsilinə də öz müsbət təsirini göstərmişdir. Təhsilə ayrılan xərclərin bir neçə dəfə artırılması, Azərbaycanda mövcud olan məktəblərin yeni avadanlıqlarla və kompüterlərlə təchiz edilməsi, onların 30 faizinin yeni binalar və korpuslarla, hər bir şagirdin pulsuz dərsliklərlə təmin olunması, Azərbaycan və dünya ədəbiyyatı nümunələrinin ümumən 13 milyondan artıq tirajla çap olunub kitabxanalara çatdırılması və digər tədbirlər bunu bir daha sübut edir.

Azərbaycanın təhsil tarixi hər birimizin fəxr etdiyi nailiyyətlərlə zəngindir. Azərbaycan müəllimləri bütün tarix boyu təhsildə daim varisliklə novatorluğun, ənənə ilə islahatın vəhdətini öz fəaliyyətlərində əks etdirmişlər. Bu gün qədəm qoyduğumuz informasiya cəmiyyəti və biliklərə əsaslanan yeni tipli iqtisadiyyatın formalaşması, qloballaşma çağırışları bütün dünya təhsil sistemi qarşısında yeni vəzifələr qoyur.

"Təhsil əsri" adı qazanmış XXI əsr Azərbaycan təhsilinin də yeniləşməsini və müasirləşməsini tələb edir. Əminəm ki, Azərbaycan müəllimləri fəaliyyətlərini bu tələblərə uyğun daha da təkmilləşdirərək, müstəqil Azərbaycan Respublikasının çiçəklənməsinə xidmət edən gənc nəslin yetişdirilməsi işinə öz töhfələrini verəcəklər.

İnanıram ki, Azərbaycan müəllimlərinin bugünkü ali məclisi ötən qurultaydan keçən müddət ərzində ölkəmizdə milli təhsil quruculuğu sahəsində qazanılmış nailiyyətləri layiqincə qiymətləndirəcək, bu sahədə mövcud problemləri müəyyənləşdirəcək və milli təhsilimizin gələcək inkişafı naminə qəbul edəcəyi qərarların yerinə yetirilməsinə ölkənin bütün intellektual potensialını səfərbər edəcəkdir. Ümidvaram ki, müstəqil Azərbaycan müəllimlərinin XIII qurultayı müasir təhsilimizin qarşısında duran məsələlərin həlli yolunda mühüm addım olacaqdır.

Sizin hamınıza cansağlığı və xoşbəxtlik, fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

Dərin hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 sentyabr 2008-ci il.

AZƏRBAYCAN MÜƏLLİMLƏRİNİN XIII QURULTAYI

Sentyabrın 22-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında respublika müəllimlərinin XIII qurultayı keçirilmişdir. Qurultayda 850 nümayəndə iştirak edirdi.

Prezidentin İcra Aparatının, Milli Məclisin, Nazirlər Kabinetinin məsul işçilərinin, Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin səfirlərinin, beynəlxalq təşkilatların nümayəndələrinin də iştirak etdikləri qurultayı təhsil naziri Misir Mərdanov açdı.

Prezidentin İcra Aparatının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fatma Abdullazadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qurultaya təbrik məktubunu oxudu.

Sonra təhsil naziri Misir Mərdanov hesabat məruzəsi etdi. O dedi ki, Azərbaycan müəllimlərinin XIII qurultayı müstəqil dövlətimizin beynəlxalq aləmdə nüfuzunun getdikcə artdığı, iqtisadiyyat, təhsil, mədəniyyət və idman sahələrində böyük uğurların və qələbələrin əldə olunduğu tarixi bir dövrə təsadüf edir. Ölkəmizdə aparılan məqsədyönlü siyasət nəticəsində ötən beş ildə dövlət büdcəsinin 10 dəfə artaraq 1,2 milyard manatdan 12 milyard manata çatması Azərbaycanı iqtisadi inkişaf sürətinə görə lider dövlətlər sırasına çıxarmışdır.

Azərbaycan təhsilinə göstərilən qayğıdan, bu sahədə qazanılan nailiyyətlərdən danışan M.Mərdanov bildirdi ki, ulu öndərimiz, qüdrətli siyasi xadim Heydər Əliyevin təşəbbüsü ilə başlanmış təhsil islahatları geniş vüsət almışdır. Dövlət büdcəsindən təhsilə ayrılan vəsaitin məbləği 2003-cü illə müqayisədə 5 dəfədən çox artaraq, 2008-ci ildə 1,1 milyard manat təşkil etmiş, investisiya xərcləri isə 5,8 milyon manatdan 220 milyon manata çatmışdır. Bu illər ərzində təhsil işçilərinin əmək haqqı 6 dəfə, tələbələrin təqaüdü 10 dəfə, aspirantların təqaüdü 4,5 dəfə artmışdır.

Nazir Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Dünyada savadlılığın dəstəklənməsi" mövzusunda Bakı şəhərində keçirilən YUNESKO-nun regional konfransının təhsil tariximizdə mühüm hadisə olmaqla bərabər, Azərbaycanın dünyada qabaqcıl təhsil meyillərini dəstəkləyən ölkə imicini daha da yüksəltdiyini vurğuladı.

Ayrı-ayrı təhsil pillələri üzrə həyata keçirilən tədbirlərdən, qarşıda duran vəzifələrdən bəhs edən nazir dedi ki, məktəbəqədər təhsil müəssisələrində yeni təlim texnologiyalarının tətbiqi ilə əlaqədar beynəlxalq təşkilatlarla birlikdə bir sıra işlər görülmüş, 3 min rəhbər və pedaqoji işçi elmi-metodik hazırlıqlarının yüksəldilməsi məqsədi ilə öyrədici məşğələlər keçmişdir. Son 20 ildə ilk dəfə olaraq, Bakı şəhərində 11 yeni uşaq bağçası tikilib istifadəyə verilmişdir. Bu il 21 uşaq



bağçası əsaslı təmir ediləcək və müasir avadanlıqla təmin olunacaqdır.

Son beş ildə 300 min şagird yerlik 1360 yeni məktəb binası inşa olunmuş, 300-dək təhsil ocağı əsaslı təmir edilmişdir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə reallaşdırılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində 43 min 770 şagird yerlik 226 yeni məktəb binası tikilmişdir. 39 məktəb, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün 28 internat məktəbi əsaslı təmir edilmiş, müasir avadanlıqla təchiz olunmuşdur. Bu ilin sonunadək daha 161 yeni məktəb binası istifadəyə veriləcəkdir. Beləliklə, son illərdə yeni tikilmiş və əsaslı təmir edilmiş məktəblərin sayı 1600-ü ötəcək, ümumilikdə 700 mindən çox şagird, yəni bütün şagirdlərin təxminən 50 faizi müasir tələblərə cavab verən məktəblərdə təhsil alacaqdır. Gələcəkdə daha 450 məktəb üçün yeni bina inşa ediləcək, ayrı-ayrı təhsil müəssisələri üçün əlavə korpuslar tikiləcək, 1200 məktəb əsaslı təmir olunacaqdır.

İnformasiya-kommunikasiya texnologiyalarının təhsilə tətbiqinin əhəmiyyətini vurğulayan M.Mərdanov "2008-2012-ci illərdə Azərbaycan Respublikasının təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" çərçivəsində 200 məktəbin genişzolaqlı sürətli internetlə təmin olunmasının, DATA mərkəzinin, elektron tədris resursları bazasının, vahid təhsil portalının yaradılmasının da nəzərdə tutulduğunu bildirdi.

Təhsillə bağlı 14 inkişafyönümlü Dövlət proqramının təsdiq edildiyini xatırladan nazir dedi ki, 2007/2008-ci tədris ilində təhsil tariximizdə ilk dəfə olaraq, dövlət səviyyəsində "Ən yaxşı müəllim" və "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqələri keçirilmişdir.

Bu il 102 adda 4 milyon nüsxədən çox dərslik və müəllimlər üçün dərs vəsaiti çap olunaraq məktəblərə verilmişdir.

"2005-2009-cu illər üçün Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatı üzrə İnkişaf Proqramı"na müvafiq olaraq, ciddi ehtiyac olan ucqar kənd məktəblərinə göndərilən müəllimlərin sayı 4800 nəfərə çatmışdır. Növbəti ildə 1308 müəllimin ucqar kənd məktəblərinə göndərilməsi nəzərdə tutulmuşdur.

Bu il ali məktəblərə qəbulla bağlı test imtahanlarında məzunların nəticələrinin ötən ilə nisbətən xeyli yüksəldiyini bildirən nazir dedi ki, 600-dən çox bal toplayanların sayı 2004-cü ilə nisbətən 2 dəfədən çox artmış, 6 nəfər maksimum, yəni 700 bal toplamışdır. Son illərdə dünya fənn olimpiadalarında və beynəlxalq bilik yarışlarında Azərbaycan məktəbliləri 12 qızıl, 24 gümüş, 59 bürünc medal qazanmışlar.

Təhsil sahəsində beynəlxalq əlaqələrdən bəhs edən M.Mərdanov bildirmişdir ki, hazırda Azərbaycan dünyanın 30-dan çox ölkəsi ilə təhsil əlaqələri qurmuşdur. Xarici ölkələrin ali təhsil müəssisələrində 4 minədək azərbaycanlı gənc oxuyur. Onların 900 nəfərindən çoxu dövlətin hesabına təhsil alır. Respublikamızın universitetlərində isə 6 min 500-dək əcnəbi tələbə təhsillərini davam etdirir.

Dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq olunmuş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na uyğun olaraq, bu il 130-dək azərbaycanlı gəncin ABŞ, Almaniya, Fransa, Böyük Britaniya, Türkiyə və digər ölkələrin aparıcı universitetlərində təhsil almağa göndərilməsi nəzərdə tutulur.

Nazir ölkəmizdə ali və orta ixtisas, texniki peşə təhsillərinin inkişafı, informasiya-kommunikasiya texnologiyalarının təhsil sahəsinə tətbiqi üzrə həyata keçirilən proqramların əhəmiyyətini də vurğuladı.

M.Mərdanov daha sonra bildirdi ki, 2008-2009-cu dərs ilindən etibarən I siniflərdən yeni kurrikulumlarla tədrisə başlanmış və beləliklə, ümumi təhsil sistemində yeni mərhələnin təməli qoyulmuşdur. Bu dərs ili həm də təhsil tariximizdə ilk dəfə olaraq, yeni fənn kurrikulumları əsasında hazırlanmış dərslik, müəllimlər üçün vəsait və şagirdlər üçün iş dəftərindən ibarət dərslik komplektinin tətbiqi ilə əlamətdar olmuşdur.

Bolonya bəyannaməsinin müddəalarına uyğun olaraq, ali təhsil sisteminin yeniləşdirilməsi və təhsilin keyfiyyətinin ümumavropa tələblərinə uyğunlaşdırılması da ciddi diqqət mərkəzindədir. İlk növbədə, bakalavr hazırlığının yeni nəsil dövlət standartları və attestasiya qaydaları hazırlanıb təsdiq olunmuşdur. 2006-cı ilin sentyabrından 21 ali məktəbdə 30 ixtisas üzrə kredit sisteminin tətbiqinə başlanmış, 15 ali və 6 orta ixtisas təhsili müəssisəsi akkreditasiyadan keçirilmişdir. Eyni zamanda, Avropa Komissiyası, Avropa Şurası və YUNESKO tərəfindən təsdiq olunmuş diploma əlavənin vahid modeli əsasında ölkə üzrə müvafiq sənəd hazırlanmışdır.

Nazir dedi ki, bütün bunlarla yanaşı, ali təhsilin inkişafı ilə bağlı öz həllini gözləyən məsələlər də vardır. Ona görə də, dövlət başçısının müvafiq sərəncamına əsasən, "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" layihəsi hazırlanıb hökumətə təqdim edilmişdir.

Ali məktəb müəllimləri elmi araşdırmalarla da fəal məşğul olurlar. Xarici elmi jurnallarda alimlərimizin 800-dən artıq məqaləsi dərc olunmuş, ali məktəblərin 300 əməkdaşı xarici ölkələrdə keçirilən konfrans və simpoziumlarda iştirak etmişdir.

Sonra Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar, AMEA-nın prezidenti, akademik Mahmud Kərimov əlamətdar hadisə münasibətilə təhsil



işçilərini təbrik etdilər, onlara yeni tədris ilində nailiyyətlər arzuladılar.

Türkiyənin Azərbaycandakı səfirliyinin təhsil müşaviri Səlahəddin Dikmən Türkiyə Böyük Millət Məclisinin sədri Köksal Toptanın, milli təhsil naziri Hüseyn Çelikin və digər qurumların rəhbərlərinin qurultay iştirakçılarına təbriklərini oxudu.

Sonra hesabat məruzəsi ətrafında çıxışlar başlandı.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev, Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının sədri Şəmsəddin Hacıyev, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadə, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Seyfəddin Qəndilov və başqaları Azərbaycanın Avropa təhsil məkanına - Bolonya prosesinə qoşulmasının əhəmiyyətini vurğuladılar, təhsilimizin inkişafı ilə bağlı fikir və mülahizələrini bildirdilər, yeni dərs ilində təhsil işçilərinə nailiyyətlər arzuladılar.

Sonra qurultayın qətnaməsinin layihəsi oxundu.

Qurultay adından müraciət qəbul olundu.

Baş nazirin müavini Elçin Əfəndiyev, Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov, Nazirlər Kabinetinin elm, mədəniyyət, xalq təhsili və sosial problemlər şöbəsinin müdiri İsmayıl Sadıqov qurultayda iştirak edirdilər.

AzərTac

TƏHSİL

AZƏRBAYCANLI TƏLƏBƏ İNDONEZİYADA

İndoneziya Xarici İşlər Nazirliyinin "2008-ci il İndoneziya İncəsənəti və Mədəniyyəti Təqaüdü" proqramı çərçivəsində 3 aylıq kursda iştirak edən Azərbaycan Dillər Universiteti beynəlxalq münasibətlər fakültəsinin tələbəsi Elmar İsgəndərov sentyabrın 17-də bu ölkədə geniş dinləyici auditoriyasına malik Radio Eltira FM-in proqramının xüsusi qonağı olmuşdur.

E.İsgəndərov Azərbaycanın coğrafi mövqeyi, əhalisi, dövlət dili, iqtisadi inkişafı, ölkədə din və etiqad azadlığı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat vermiş, dinləyicilərin çoxsaylı suallarını cavablandırmışdır. O, Azərbaycan-İndoneziya əlaqələrinin yüksək sürətlə inkişaf etdiyini, buna misal olaraq İndoneziyanın xarici işlər naziri Həsən Virayudanın bu ilin mayında ölkəmizə rəsmi səfərini göstərmişdir.

E.İsgəndərov İndoneziyanın davamlı olaraq Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyinə görə minnətdarlığını bildirmişdir.

Yuxarıda adı çəkilən kursda Azərbaycan Dillər Universitetinin tələbələri Günel Bayramova və Ülkər Qafarlı da iştirak edirlər.

MUSİQİ MƏKTƏBLƏRİNDƏ "ÜZEYİR DƏRSİ"

Azərbaycanın bütün musiqi məktəblərində "Üzeyir dərsi" tədris olunacaqdır.

Bu barədə mədəniyyət və turizm naziri Əbülfəs Qarayev məlumat vermişdir. Nazir demişdir ki, artıq bununla bağlı Təhsil Nazirliyi ilə danışıqlar aparılmışdır. Eyni zamanda, Azərbaycan musiqi tarixinin öyrənilməsi məqsədi ilə məktəblərdə musiqi tarixi fənni də tədris olunacaqdır.

MOSKVA MERİNİN TƏQAÜDÜ

Sentyabrın 24-də Azərbaycanın Rus İcmasının 15 illiyinə həsr edilmiş konfransda 22 tələbəyə Moskva merinin təqaüdü verilmişdir.

Təqaüdləri ölkəmizin ali məktəblərinin rus bölməsinin ən fəal tələbələri almışlar. Moskva şəhərinin meri Y.Lujkov 1996-cı il dekabrın 4-də "Moskva meri təqaüdünün təsis edilməsi haqqında" sərəncam imzalamışdır. 2007-ci il avqustun 8-də Moskva hökuməti Azərbaycanı da "Moskva merinin təqaüdü" proqramına qoşmaq haqqında qərar qəbul etmişdir.

KARYERA ÜÇÜN YAXŞI TƏHSİL LAZIMDIR

Oktyabrın əvvəllərində Bakıda dünyanın bir sıra ölkələrini təmsil edən 200 nümayəndənin iştirakı ilə "Təhsil və karyera" mövzusunda ikinci Beynəlxalq sərgi-konfrans keçiriləcəkdir. Azərbaycanın təhsil sahəsində qazandığı uğurları nümayiş etdirməli olan konfransda iştirakçılar öz təhsil müəssisələrinin təcrübəsini bölüşəcək, müştərək layihələrin həyata keçirilməsi, müasir tələblərə cavab verən kadrların hazırlanması yollarını müzakirə edəcəklər.

Sərginin əsas bölmələri orta və ali təhsil sisteminin təşkili, xaricdə təhsil, dillərin öyrənilməsi, ixtisasartırma kurslarının fəaliyyəti məsələlərinə həsr olunacaqdır. Gənclərin işlə təmin olunması problemlərinə, təhsil sahəsində tətbiq edilən informasiya texnologiyalarına, məktəbli formasının və dəftərxana ləvazimatlarının istehsalı ilə bağlı məsələlərə aid materiallar da nümayiş olunacaqdır.

Sərgi çərçivəsində Azərbaycanda ilk beynəlxalq kitab yarmarkası da keçiriləcəkdir. Yarmarkanın bölmələrində elmi və bədii ədəbiyyat, orta və ali məktəblər üçün dərsliklər və başqa nəşrlər, özəl mətbəələrin məhsulları nümayiş etdiriləcəkdir.

SİYASƏT

"Rusiya və Qərb Bakıdan daha loyal münasibət istəyir"



"İndi həm Rusiya, həm də Qərb rəsmi Bakıdan daha loyal münasibət istəyir və son təmaslar bununla bağlıdır. Azərbaycan indi siyasi təzyiqlə deyil, siyasi fürsətlə üzləşib. Moskvada Azərbaycan prezidentinə Dağlıq Qarabağ münaqişəsilə bağlı ən yüksək səviyyədə təminatlar verə bilərlər.

Kremlin Gürcüstandakı qarşıdurmadan sonra narahatlığı və özünə dəstək axtarışı yaxşı başa düşülür və çox güman ki, Medvedyev də məhz buna görə Əliyevi Moskvaya dəvət edib".

Bu barədə Azərbaycan prezidentinin Moskva səfərini "Amerikanın səsi" radiosunda şərh edən Moskva Dövlət Universitetinin post-sovet ölkələri üzrə tədqiqatçısı Aleksandr Karavayev bildirib. O hesab edir ki, prezident Medvedyev prezident Əliyevə müəyyən təminatlar verib ki, Ermənistan Azərbaycanla münaqişədə müəyyən olunmuş xətləri keçməyəcək:

"Hər halda, Rusiya rəhbərliyinin siyasəti budur ki, son hadisələr Qarabağ münaqişəsinə sirayət etməməli və diplomatik təmaslarda böhran yaratmamalıdır.

İkincisi, Rusiya Bakını həm də Azərbaycanın gələcək tranzit layihələrinin normal şəkildə davamı barədə sakitləşdirmək istəyir".

Tədqiqatçının fikrincə, hazırda həm də Rusiya və Qərb arasında yerli münaqişələrin çözümündə dominantlıq uğrunda rəqabət gedir: "Medvedyevlə görüşdən sonra İlham Əliyev bildirib ki, bölgədəki gərginliyə baxmayaraq, nizamlanma işində irəliləyişə yaxşı əsaslar var".

ABDULLAH GÜL BMT-DƏ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN ƏRAZİ BÜTÖVLÜYÜ PRİNSİPİ ƏSASINDA HƏLL EDİLMƏSİNİ VURĞULAMIŞDIR

Sentyabrın 23-də Nyu-Yorkda, BMT Baş Məclisinin 63-cü sessiyasının ümumi müzakirələrində Türkiyə Prezidenti Abdullah Gül bəyanatla çıxış etmişdir. Ölkəsinin beynəlxalq sülh və sabitliyin bərqərar olmasında rolu barədə ətraflı danışan Türkiyənin dövlət başçısı bildirmişdir ki, Türkiyənin təşəbbüsü olan "Qafqazda Sabitlik və Əməkdaşlıq Platforması" Cənubi Qafqazda gələcək münaqişələrin qarşısını alacaq, bölgədə etimad ab-havası yaradacaq və ümumi problemləri demokratik çərçivədə müzakirə etməyə imkan verəcək vasitəyə çevrilə bilər. O demişdir ki, Ermənistana və Azərbaycana səfərlərinin təəssüratları, eləcə də Baş nazir Ərdoğanın Rusiya və Gürcüstana səfərlərinin nəticələri belə deməyə əsas verir ki, bütün maraqlı tərəflər təşəbbüsü dəstəkləyir. Prezident ümid etdiyini bildirmişdir ki, təşəbbüs nəticəsində yaradıla biləcək müsbət perspektivlər "işğal edilmiş Dağlıq Qarabağ da daxil olmaqla, bölgədəki dondurulmuş münaqişələrin ərazi bütövlüyü prinsipi əsasında həllinə töhfə verəcəkdir". Türkiyə Prezidentinin sözlərinə görə, bu perspektiv bölgədəki dövlətlər arasında ikitərəfli əlaqələrin yaxşılaşdırılmasına da kömək edərdi.

"DAĞLIQ QARABAĞ AZƏRBAYCANIN TƏRKİBİNDƏ QALARSA, ERMƏNİLƏR BU ƏRAZİNİ TƏRK EDƏR"

Türkiyənin "Milliyət" qəzetinə müsahibəsində bu fikri səsləndirən Ermənistanın dövlət başçısı Serj Sarkisyan Dağlıq Qarabağın gələcəyi ilə bağlı erməni tərəfinin bədbin baxışlarını ifadə etmişdir.

İqtisadi çətinliklər məngənəsində sıxılan Ermənistanın Dağlıq Qarabağın müstəqilliyini də tanımayacağını bildirən Serj Sarkisyan əlavə etmişdir ki, bu münaqişənin sülh yolu ilə həlli istiqamətində danışıqlar davam edir. Onun sözlərinə görə, Gürcüstandakı hadisələr etnik münaqişələrin silah yolu ilə həllinin nə dərəcədə təhlükəli olduğunu göstərmişdir.

Serj Sarkisyan "Milliyət" qəzetinin Ermənistanın Türkiyəyə qarşı ərazi iddialarına dair sualını cavablandırarkən demişdir ki, heç bir erməni rəsmisinin bu cür bəyanatı olmamışdır. Başqa bir suala cavabında isə demişdir ki, 20 il əvvəl natamam bildiyi Azərbaycan dilini indi unutmuş, hətta cümlə qurmaqda belə çətinlik çəkir. Türk və Azərbaycan dillərinin çox yaxın olduğu ona məlumdur. Bu səbəbdən türkiyəli həmkarı Abdullah Güllə tərcüməçi vasitəsilə söhbət etmişdir.

Serj Sarkisyan bildirmişdir ki, qarşıdakı futbol matçında İstanbulda olarkən Baş nazir Rəcəb Tayyib Ərdoğanla da görüşmək arzusundadır.

TƏLƏBƏ SORĞUSU

2008-ci il, yaz semestri

(əvvəli jurnalın ötən nömrəsində)

✠ *Bütün müəllimlər, heç olmasa, 5-10 dəqiqə tərbiyəvi söhbət etsələr, bəlkə bu gənclərin gülməkdən başı açılar. Həyatda başqa şeylərin – etikanın, mədəniyyətin, tərbiyənin olduğunu da hiss edərlər. Axı nə qədər şit zarafatlar, gülüşlər olar?! Hər şeyin öz çərçivəsi var.*

✠ *Çox xahiş edirəm ki, cavan qız müəllimələrinə tələbələrlə necə davranmağı öyrədəsiniz.*

✠ *Kitabxanaya daha nəzakətli xanımlar gətirilsin.*

✠ *Bufetdə sevgililərin əlindən oturmaq olmur. Bilmirəm parkdı, yoxsa bufet. Xahiş edirəm ki, ora nəzarət edəsiniz.*

✠ *Bufeti böyüdün, qiymətləri aşağı salın.*

✠ *Yenə də köhnə hamam, köhnə tas. 3 ildir bufetdən şikayətlənirəm, nəticə yoxdur. Heç nə yazmıram, nəyimə lazımdır, bir ilim qalıb.*

✠ *Yeməkxanadakı xanımlar adamla elə danışırlar ki, elə bil yeməyi pulsuz verirlər.*

✠ *Müəllimlər üçün ayrılan bufetin tələbələrə verilməsi təqdirəlayiq olardı.*

✠ *Universitet daxilində tələbə biletlərinin koduna keçid tam şəffaflığı azaldır. Digər uşaqların qiymətini bilsək nə olar ki?!*

✠ *Balların tələbə biletinin nömrəsi ilə çıxması yaxşıdır, amma çox tələbənin işi çıxmamışdı. Dekanlıq isə bu işə laqeyd yanaşır.*

✠ *Tələbə sorğusu əla işləyir. Yazdıqlarımız yaxşı çıxır. Düzgünlük şüarımızdır.*

✠ *Təzə korpus da yarımçıq qalıb. Görən nə vaxt tikiləcək, biz də xoşbəxt olacağıq, orada dərs keçəcəyik?!*

✠ *İllik təhsil haqqımızı ödəmək üçün xəzinədarı yerində tapa bilmirik. Xahiş edirəm ki, bunu nəzərə alasınız.*

✠ *Təhsil haqqının çox olmasına baxmayaraq, universitədə hər şey tam mükəmməl deyil. O qədər pul veririk, xahiş edirəm ki, rahatlığımızı təmin edin. Yazdıqlarımızı çap edin.*


✠ *Xəzərdə dərslər qalsın bir yana, isti axırımıza çıxacaq.*

✠ *Kompüter otağında oğlanlar ağzına gələni danışır. Buna bir tədbir görün. Ora təkcə oğlanlar üçün deyil.*

✠ *Xahiş edirəm ki, giriş qapısının ağzını nizamlayın, oğlanlar yığışır, içəri girmək olmur.*

✠ *İstidən dərsdə oturmaq olmur. Qapı-pəncərəni açın. Bizə yazığınız gəlsin.*

HƏYATIMDA ŞÜURLU DÖNÜŞ



İsmət ƏHMƏDOV,
Bioloji Elmlər Departamentinin müdiri

Xəzər Universitəsinə gəlişimdən artıq 17 il keçir. Az bir müddət deyil. Bu elə universitənin yaşıdır. Hər dəfə ömrümün bu illəri haqqında fikirləşəndə bir sıra suallara cavab tapmağa çalışıram. Bu suallardan biri məhz "nə üçün mən taleyimi bu universitə ilə bağladım" sualıdır. Bu sualı cavablandırmaq cəhdi məndə həm universitənin tarixi üçün və həm də gələcək həyat yollarını seçmək istəyində olan gənclərimiz üçün maraqlı olacağından yarandı. O illər üçün ən müasir elm sahələri sayılan biofizika, molekulyar biologiya, yeni yaranmaqda olan membranologiya elmləri üzrə mütəxəssis, Sankt Peterburq (keçmiş Leninqrad) şəhərində, dünya şöhrətli fizik A.F.İoffenin yaratdığı Aqrofizika institutunun biokibernetika laboratoriyasında dünya əhəmiyyətli mühüm, perspektivli elmi mövzular üzrə tədqiqat məktəbi keçmiş, 18 il fundamental elmi tədqiqat işləri ilə məşğul olan və bu sahələrdə xeyli ümidverici elmi nailiyyətlər qazanmış alimin təhsildə nə işi vardı, onu bu işə nə cəlb edirdi, hansı maraqlar onu universitəyə gətirdi? Mənim bu şeçimi etməyimin obyektiv səbəbləri var idi.

Xəzər Universitəsinin yarandığı ərəfədə - 1991-ci ilin yazında Azərbaycanda vəziyyəti xatırlayanda ilk növbədə o günlərin siyasi təlatümləri, 20 Yanvar hadisəsindən şoka düşmüş xalqımızın əhvali-ruhiyyəsi, ziyalılarımızın gələcəyimiz haqqında çaş - baş fikirləri və hərəkətləri yadıma düşür. Bu ərəfədə heç kimin ağlına nə isə yaratmaq düşmürdü. Hər şey dağılırdı, SSRİ kimi nəhəng bir ölkə çökürdü. Bu ərəfədə kiminsə uzaqgörənliyi, inamlı hərəkəti, öz arzusunun hakimi olması əsil möcüzə idi.

O zaman mən Azərbaycan Elmi - Tədqiqat Əkinçilik İnstitutunda, akademik C.Əliyevin rəhbərlik etdiyi bitki fiziologiyası şöbəsində, son vaxtlar isə "Fitatron" süni iqlim kompleksində baş elmi işçi vəzifəsində işləyirdim. Bununla yanaşı, 1980-ci ildən Bakı Dövlət Universitetinin Biofizika və Molekulyar Biologiya kafedrası ilə elmi əməkdaşlıq edirdim, mebranologiyadan mühazirələr oxuyurdum (əlbəttə, əvəzləyici kimi), mənə diplomçular verirdilər, bir sözlə, mən bu kafedranın ştatdankənar işçisi sayılırdım. Kafedrada mənim tələbə yoldaşım Rövşən Xəlilov gənc və perspektivli alimlərdən biri idi. O, Moskva Dövlət Universitetində oxumuşdu və orada məşhur biofizik Blümenfeldin kafedrasında elmi - tədqiqat işləri aparmış və biofizika ixtisası üzrə elmlər namizədi alimlik dərəcəsi almışdı. Elmi maraqlarımız tam üst-üstə düşdüyündən elə o vaxdan bir yerdəyik.

Bir gün söhbət əsnasında Rövşən məndən Hamlet İsayevi tanıyıb tanımadığımı soruşdu. Hamlet müəllimi universitet illərindən tanıyırdım. Mən Bakı Dövlət Universi-

tetinin fizika fakultəsinin birinci kursunda, o isə riyaziyyat fakültəsinin beşinci kursunda oxuyurdu. Biz, Gürcüstan əsilli tələbələr üniversitetdə hansı bölgədən olmasından asılı olmayaraq əla oxuyan, orta məktəbi qızıl medalla bitirmiş tələbələrimizlə fəxr edirdik. Belə tələbələrdən biri də Hamlet İsayev idi. Riyaziyyat fakültəsində mənim kəndlim Musayev Hüseyn də oxuyurdu (indi o həyatda yoxdur, allah rəhmət eləsin!). O da orta məktəbi qızıl medalla bitirmişdi. Onun məndən yaşca böyük olmasına baxmayaraq dostluq edirdik. Xatırımdədir, bir dəfə universitetin həyətində o məni Hamletlə ötərgi tanış etmişdi. Hamlet "fizika fakültəsində oxumaq çox çətindir, yaxşı oxu, adımızı batırma" demişdi. Ondan sonra heç vaxt bizim yollarımız kəsişməmişdi. Bir də onun haqqında Leninqradda aspiranturada oxuyarkən dostluq etdiyim riyaziyyatçı alim Vərqa danışmışdı.

"Xəbərin olsun, Hamlet yeni ingilisdilli universitet yaratmaq istəyir və hətta artıq Nazirlər Sovetinin qərarı çıxıb, necə bilirsən, bəlkə səni onunla tanış edim" – deyə, Rövşən məndən soruşdu. O zaman Rövşənlə Hamlet bir binada qonşu idilər. Birbirlərini tanıyırdılar və bina ziyalıların binası olduğundan hamısının bir-birindən xəbərləri var idi. Mən Rövşənin bu xəbərini tamamilə çaşqınlıqla qarşıladım. Necə yəni Hamlet universitet yaradır? Özü də ingilis dilli. İlin - günün bu vaxtında bu nə deməkdir? Mən onu məşhur bir riyaziyyatçı hesab edirəm, onun universitet qurmaq arzusu nədən yaranıb? O bunu necə bacaracaq? Bu universitet digərlərindən nə ilə fərqlənəcək? Hər şey dağılır, ölkə çökmək üzrədir, o isə universitet qurmaq istəyir. (İndi bu sualların cavabını onun "Xəzərin sorağında" kitabından oxumaq olar). Xəbər məni elə çaşdırmışdı ki, xeyli fikrə getməli oldum. Yadıma elə o andaca bir hadisə düşdü.

1985-ci ilin payız ayları idi. Əkinçilik İnstitutunun Bitki Fiziologiyası şöbəsinə ənənəvi olaraq yeni məzunlar təyinat almışdılar. Onların hamısı Bakı Dövlət Universitetini qurtaranlar idi. Akademik C.Əliyevin təşəbbüsü ilə 1972-ci ildən başlayaraq hər il on nəfərə qədər universitet məzunu bu institutа təyinat alır və sonradan SSRİ-nin ən məşhur elm mərkəzlərinə məqsədli aspiranturaya göndərilirdi. Bu yolla vətənimiz üçün çox gərəkli elm sahələri (biofizika, biokimya, genetika, molekulyar biologiya, biotexnologiya və s.) üzrə mütəxəssislər hazırlanırdı. Bura təyinat alanların hamısı təhsil illərində yüksək nailiyyətlər qazanmış əlaçı tələbələr idi. Onlar Cəlal müəllimin tələbatına cavab verən tələbələr olmalı idi. Təəssüflər olsun ki, sonrakı illərdə məzunların səviyyəsi bizi qane etmirdi. Elmi seminarların birində Cəlal müəllim bu məzunların biliklərini yoxlamaq məqsədi ilə onlara suallar verdi, son nəticədə onların cavabları onu qane etmədi və bərk hirsləndi. Cəlal müəllim Bakı Dövlət Universitetinin müəllimlərini özünəməxsus şəkildə yaxşı dərs demədiklərinə görə qınadı. Onun bu qınağı mənə təsir etdi və dedim ki, Cəlal müəllim, siz də Bakı Dövlət Universitetini qurtarmısınız, mənə də, burada olan alim yoldaşlarımın əksəriyyətinə də həmin müəllimlər dərs demişlər. Onların nə günahı var? Tələblər oxumurlar, elmə maraqları azalıb, universitetin bazası müasir tələblərə cavab vermir, tədrisin metodologiyası dəyişdirilməlidir. O mənə kəskin etiraz edərək, bütün günahların universitetdə və onun müəllimlərində olduğunu dedi. Dedim ki, Cəlal müəllim, gəlin onda biz yeni bir universitet yaradaq. Bu sözdən o çox hirsləndi və mənim boş xülyalar söylədiyimi dedi: elə bilirsən universitet yaratmaq asan işdir? Bundan sonra söhbət qapanmışdı. İndi, 7 ildən sonra bu xəbəri eşitmək, özünüz təsəvvür edin, hansı hissləri doğurardı? Universtitet yaratmaq, tarixə düşmək, universitetin ilk müəllimlərindən biri olmaq o zamanlar ayrı cür hisslər idi.

Bu universitet Nazirlər Sovetinin qərarına görə İngilisdilli Azərbaycan Universiteti adlanırdı. Onun bu cəhəti də məndə

xüsusi maraq oyatmışdı. Hələ Leninqradda aspiranturada oxuyarkən ingilis dilini bilməməyim mənə çox əziyyətlər vermişdi (orta məktəbdə, universitetdə mən alman dilini öyrənmişdim). Həmişə çalışırdım ki, dünya elmi ədəbiyyatını müntəzəm izləyim. Bunun üçün isə ingilis dilini bilmək lazim idi. Bundan başqa, ingilis dilini bilən elmi işçilərə 15 rubl əlavə pul verirdilər. Sovetlər vaxtinda bu pulla rahatca Tiflisə gatarla gedib qayıtmaq olurdu. Leninqradda ingilis dilini öyrənmək cəhdlərim həm maddi və həm də vaxt nöqteyi-nəzərdən baş tutmamışdı. Bu imkan Bakıda reallaşdı. 1980-ci ildə Xarici Dillər İnstitutunun nəzdində yaranan 2 illik ingilis dili kursuna daxil oldum (illik təhsil haqqını Əkinçilik institutu ödəyirdi). Hamı məni qınayırdı ki, alim adamsan, sənin təzədən ali məktəbdə oxumağın nəyə lazımdır? Lakin mən ciddi səylə axşamlar oxuyub, Xarici Dillər İnstitutunun bu kursunu əla qiymətlə bitirdim. Bundan sonra mən ingils dilində elmi ədəbiyyatı sərbəst oxuyub anlayırdım. Ancaq çox təəssüflər olsun ki, iş yerində, elmi dairələrdə ingils dili mühiti olmadığından mən yavaş-yavaş danışıq vərdişlərini unutmuşdum. İndi ingilis dilli universitet, dərslər ingilis dilində, mühazirələr ingilis dilində oxunur, görün mənim üçün bu nə demək idi.

Bundan əlavə, mühazirə oxumaq həvəsim, tələbələrlə ünsiyyət qurmaq, öz məktəbini yaratmaq, tələbələrə yeni yaranan elm sahələri üzrə dünya elmi nailiyyətlərini çatdırmaq həvəsi məni tədrisə cəlb edirdi. Bakı Dövlət Universitetində mənim membranologiya, molekulyar biologiya üzrə oxuduğum mühazirələr tələbələrin çox xoşuna gəlirdi. Müəllim yoldaşlarım, kafedra müdiri T.Məmmədov (indi o da həyatda yoxdur, allah rəhmət eləsin!) etiraf edirdilər ki, tələbələr mənim mühazirə oxumağımdan çox razı qalırlar. Lakin nə vaxta qədər ştatdankənar müəllim kimi işləyəcəkdim? İndi imkan yaranırdı ki, ilk universitetin ilk müəllimlərindən biri olum. SSRİ dövründə ali məktəbdə mühazirə oxumaq hər bir alimin arzusu idi. Lakin bu çox çətin və məsuliyyətli bir iş idi. O dövrdə hətta çox məşhur olan akademiklər belə mühazirə oxumaqdan, tələbə qabağına çüxmaqdan çəkinirdilər. İndiki kimi, elektron vasitələri, kompüter, hazır mühazirə slaydları yox idi. Tələbələrin səviyyəsi yüksək idi, onlar keçiləcək mühazirələr haqqında əvvəlcədən məlumat toplayırdılar. Auditoriyalardan yalnız müəllimin mühazirəsinin səsi gəlirdi. Tələbələr hər bir fənnə məsuliyyətlə yanaşırdılar. Odur ki, hazırlıqsız auditoriyaya girən müəllimin aqibəti bəzən acınacaqlı olurdu. Ali məktəb müəllimlərinin cəmiyyətdə mövqeyi, reytinqi yüksək idi.

Elmi-tədqiqat institutunu tərk edib təhsillə məşğul olmağımın və Xəzər Universitetinə gəlməyimin bir obyektiv səbəbi də o dövrdə Azərbaycanda olan ab-hava ilə əlaqədar idi. Çökməkdə olan Sovetlər ölkəsinin elmi də artıq tənəzzülə uğramışdı. Müasir elm sahələrinin yaranması güclü elmi tədqiqat bazası, laboratoriya avadanlıqları tələb edirdi. Beynəlxalq əlaqələr tələb edirdi. Xüsusilə mənim məşğul olduğum elm sahələrində bu çox qabarıq hiss olunurdu. Belə fikirləşirdim ki, yeni yaranan ali məktəbdə bu cür avadanlıqları əldə etmək, müasir laboratoriyalar qurmaq, istədyim elm sahələri ilə məşğul olmaq daha sərbəst və asan olacaq. Odur ki, dostum Rövşən müəllimin xəbəri məndə olmazın gözəl arzular oyatmışdı.

Bu xoş xəbərdən az sonra Rovşən məni, onların evlərinin həyətində Hamlet müəllimlə tanış etdi və razılaşdıq ki, mən universitənin yerləşdiyi Xalq Təsərrüfatını İdarəetmə İnstitutuna gəlim və orada ətraflı söhbət edək. Bir neçə gündən sonra mən Azadlıq prospektində yerləşən, indiki Amerika səfirliyinin binası ilə üzbəüz olan instituta gəldim. Mənim həyatımda mühüm dönüş nöqtələrindən biri olan bu tarixi hadisə 1991-ci ilin aprel ayının ortalarına təsadüf edirdi. Nazirlər Kabinetinin qərarına görə, İngilisdilli Azərbaycan Universiteti ilkin ola-

raq Xalq Təsərrüfatını İdarəetmə İnstitutunun nəzdində, özünümaliyyələşdirmə və qismən də dövlət yardımı prinsipi ilə fəaliyyət göstərməli idi. Sonralar tam möhkəmlənib ayağa durduqdan sonra sərbəst fəaliyyət göstərəcəyi planlaşdırılmışdı. Xalq Təsərrüfatını İdarəetmə İnstitutunun rektoru Rəhim Rəhimov özünü bu universitetin də rektoru hesab edirdi. Lakin faktiki olaraq bütün işlər Hamlet müəllimə tapşırılmışdı. Hamlet müəllim məni universitet üçün ayrılmış kabinetində qəbul etdi. O məni universitetin ilk müəllimi Bəylər Hacıyevlə də tanış etdi və biz xeyli söhbət etdik. İlk öncə Hamlet müəllim məni İngilisdilli Azərbaycan Universitetinin yaradılması haqqında Nazirlər Sovetinin qərarı ilə tanış etdi. Sonra o, universitetin fakültələri, gələcək fəaliyyəti və perspektivləri haqqında həvəslə danışdı. Hamlet müəllim bu universitetin Amerika, Avropa universitetləri modelinə uygun qurulacağından, ixtisasların çevikli olacağından, dünya universitetləri ilə sıx əlaqələr yaradılacağından, tədqiqat yönümlü universitet olacağından, müəllimlərin, universitet əməkdaşlarının həyat səviyyəsinin, onların şəraitinin dünyanın ən yaxşı universitetlərində olan şəraitə uyğun olacağından danışdı. Sonra biz universitetin fakültələri haqqında söhbət etdik. Hamlet müəllimin arzusu universitetdə beynəlxalq tələbatlara cavab verən tibb fakultəsi yaratmaq idi. Lakin qərarda fakültənin ekologiya, əsasən insan ekologiyası olacağını yazmışdılar. Odur ki, mənim üzərimə düşən başlıca vəzifəmin biologiya və fizika fənləri üzrə qəbul proqramını, imtahan biletlərini hazırlamaq və bu sahənin ən yaxşı mütəxəssislərini universitetə cəlb etmək olacağını müzakirə etdik. Hamlet müəllimlə ilk səmimi söhbətimiz məndə o qədər xoş təəssürat yaratmışdı ki, tərəddüd etmədən onun bütün təkliflərini qəbul etdim.

Az bir müddət ərzində onun ətrafına yüksək dərəcədə peşəkar, səmimi, işini ürəkdən sevən, gələcəyə böyük nikbinliklə baxan yaradıcı alimlər toplaşdı. Bəylər Hacıyev, Əfqan Aslanov, Şahin Pənahov, Roza Arazova, Hüseynağa Hüseynov, Asəf Əsədov, Firəngiz Nəsirova, Xatirə Zeynalova və başqaları universitetin qurulmasında çox böyük əmək sərf etdilər. Biz az bir müddət ərzində bütün fənlər üzrə universitet üçün qəbul imtahanlarının proqramını və imtahan biletlərinin suallarını hazırladıq. Hətta bu proqramların bülleten formasında kitabçasını da nəşr etdirmişdik. İyun ayının axırlarına kimi biz universitetə tələbə qəbulu prosesini aparmaq üçün tam hazır idik. Yeni yaradılmış İngilisdilli Azərbaycan Universitetinin səsası bütün ölkəmizə yayılmışdı. SSRİ dövləti hələ mövcüd idi və onun qanunları hökmran idi. Belə bir şəraitdə yeni universitetin yaradılması bir çoxları üçün dərkedilməzlik təəssüratı yaradırdı. Universitetlərin müəllimləri, alimlər, təhsil işçiləri və əksər dövlət rəsmiləri qızğın mübahisələrə girişmişdilər. Təbii ki, mentalitetimizə xas olan hisslər baş qaldırmışdı. Universitetin yaşayıb fəaliyyət göstərməsinə mane olan qüvvələr ayilmağa başlamışdılar. Bu işdə ən çox fəallıq gostərən Bakı Dövlət Universitetinin və Tibb Universitetinin kollektivi idi. Onlar heç bir vəchlə bu universitetin inkişaf etməsi ilə barışa bilmirdilər. Elə indinin özündə də bu hisslər davam edir. Bizim üçün ən təsiredici məqam, əsassız olaraq universitet üçün tələbə qəbulunun dayandırılması oldu. Tələbə qəbuluna tam hazır olmağımıza baxmayaraq, dövlətin yeni qərarı çıxdı və bizə 20 nəfərdən ibarət hazırlıq kursu üçün tələbə seçməyimizə icazə verdilər. Ruhdan düşməyərək bu prosesi də payızda müvəffəqiyyətlə həyata kecirdik. Universitetə sənəd verənlərin sayı gözlədiyimizdən də çox idi. Bir yerə 4-5 nəfər düşürdü. Nəhayət, qəbul proseslərini başa çatdıraraq, 1991-ci ilin oktyabrından tədris ilinə 20 tələbə ilə (qəbuldan sonra, hansı səbəbdənsə bir tələbə dərslərə gəlmədi) başladıq. Dərslər Xalq Təsərrüfatını İdarəetmə İnstitutunun auditoriyalarında keçilirdi. Biz orada cəmi bir neçə ay yaşadıq və hər şey sonradan yenidən başlandı...

Студенты учатся предпринимательству

В последние годы одним из удивительных тенденций в американском высшем образовании стало появление новых курсов по предпринимательству.

В настоящее время высшие учебные заведения США предлагают более 5000 предпринимательских курсов, тогда как в 1985 году их было всего 250. Такие данные приводит фонд "Юинг Мэрион Кауфман" из города Канзас-Сити в штате Миссури. При этом "подавляющее большинство предпринимателей следующего поколения" составляют не учащиеся коммерческих школ, а студенты самых разных факультетов, отметила вице-президент фонда Джудит Коун. Среди них - будущие инженеры, биологи, специалисты по вычислительной технике, историки, медсестры, лингвисты, литературоведы, философы, художники и музыканты.

Оберлинский колледж в Огайо - небольшой, но авторитетный гуманитарный вуз, где учится примерно 2800 студентов - второй год осуществляет проект "Творчество и лидерство". Эта программа преподавания и развития предпринимательских навыков была создана при поддержке фонда Кауфмана и фонда Бертона Моргана из Хадсона, штат Огайо, сообщил декан Оберлинской консерватории Андреа Калин. В программе участвуют эксперты из деловых кругов.

"Основную часть денег, полученных по гранту, мы вложили в поиск возможностей для студентов создать свое дело. Идея в том, чтобы создать для них возможности развития собственных предпринимательских проектов", - рассказал Калин.

Ник Уинтер со своими однокурсниками Джорджем Сейнсом и Скоттом Эриксоном получил в этом году от Оберлинского колледжа грант в размере 30 000 долларов на создание компьютерной программы для преподавания письменного китайского языка. Она позволяет немедленно оценивать точность китайских иероглифов, которые пользователи пишут на экранах своих компьютеров курсором или электронным пером.

"Идея (программы) возникла в три часа ночи в Пекине, когда я смотрел, как мой друг проводит операцию "боевой ниндзя" на своем портативном игровом устройстве "Нинтендо", - рассказал Уинтер, ездивший в Китай на семестр с целью совершенствоваться в языке. Уинтера вдохновили изысканные маневры компьютерной игры. Вернувшись в Оберлин, он уговорил своих соседей по общежитию Сейнса и Эриксона разработать вместе с ним программу, которая использовала бы такие же методы для обучения написанию сложных китайских иероглифов.

"Мне повезло: когда я поступил в Оберлин, я и не мечтал о предпринимательстве, программировании или китайском языке, - рассказал Уинтер. – Оберлинская программа обучения предпринимательству зажгла во мне страсть к деловому творчеству ".

Такая же страсть к деловому творчеству зажглась и в Алии Кейт. Девушка провела год в Марокко, где изучала язык и культуру. Вернувшись, она подала заявку на грант для создания предприятия "Кантара" с целью импорта по принципу взаимовыгодной торговли. Кейт побывала в женских кооперативах, созданных Корпусом мира в Марокко, и захотела продавать в США их тканые изделия ручной работы. Часть выручки она дарит благотворительным фондам, помогающим женщинам и сельским общинам в Марокко.


Похоже, у Кейт есть родственная душа - Али Кэрролл из университета Уэйк-Фореста в Северной Каролине. Это учебное заведение тоже получает гранты от фонда Кауфмана.

Во время поездки в Африку в 2006 году Кэрролл приобрела "необыкновенно красивые изделия из бисера ручной работы, изготовленные кенийскими женщинами". Вернувшись домой, она "начала делать серьги, бусы и другие украшения". Так возникла ювелирная мастерская "Адиа".

Пока что Кэролл продает свои работы через ювелирный бутик в своем родном городе Нэшвилле в штате Теннеси, а также на ювелирных выставках в нескольких других круп-

ных городах и на территории студенческого городка. Часть прибыли Кэрролл использует для поддержки фонда, который содействует здравоохранению, образованию и экономическому развитию в Кении.

В начале 2008 года Кэрролл получила аспирантскую стипендию на пятый год учебы для дальнейшего развития проекта "Адиа". Она слушает курсы по дизайну и изготовлению ювелирных изделий, а также посещает занятия по коммерческой деятельности - созданию предприятий, поведению покупателей, продвижению бизнеса. В то же время она работает с сельскими жительницами Кении, чтобы получать бисер для своей фирмы, из которого потом будут сделаны ювелирные изделия. Недавно она приобрела в Кении небольшое помещение, которое теперь служит мастерской.



Джорджтаунский университет

Официальный представитель университета Уэйк-Фореста Эрик Фрейзир сообщил, что предпринимательская программа в этом учебном заведении "связана с девизом университета - pro humanitate" ("на благо человечества"). По его словам, из 4300 студентов Уэйк-Фореста, получающих диплом бакалавра, в минувшем учебном году более 200 записалось на один или несколько предпринимательских курсов, были созданы десятки успешных студенческих предприятий.

Большой популярностью в студенческом городке, по его словам, пользуется служба "Уэйк уош", которая раз в две недели забирает у студентов грязную одежду и возвращает ее чистой и аккуратно сложенной за 200 долларов в семестр. Трое студентов младших курсов - Джули Масгрейв, Элинор Смит и Скотт Грейбер - придумали этот бизнес, когда на занятиях перед ними была поставлена задача создать компанию со стартовым капиталом в 40 долларов. Сами студенты осуществляют сбор и доставку, а стирает одежду коммерческая прачечная.

Среди студенческих предприятий одним из самых уважаемых является Федеральный кредитный союз выпускников и студентов Джорджтаунского университета в Вашингтоне, который в этом году отметил свое 25-летие. Это крупнейшее студенческое финансовое учреждение в Соединенных Штатах. Его активы превышают 10 млн. долларов, а счета в нем держит более 11 000 студентов и выпускников. В организации работают более 130 стажеров.

"Мы предлагаем финансовые услуги, которые могут конкурировать с крупнейшими корпоративными банками", - заявляет кредитный союз на своем сайте. В частности, предоставляются бесплатные чековые и сберегательные счета, дебетовые карты "Виза", сетевые банковские льготы и ссуды, в том числе ипотечные кредиты.

В университете штата Аризона в Темпе - одном из крупнейших государственных университетов в стране, где учится более 65 000 студентов, - предпринимательские программы входят в учебные курсы по 116 различным специальностям.

Университет поддерживает студенческие предприятия, предоставляя начальное финансирование, офисные помещения и обучение, рассказывает директор предпринимательской инициативы Маргарет Берч. Одно из студенческих предприятий - "Уроки музыки по интернету" - предлагает частные музыкальные уроки по прямой трансляции в интернете. Для взаимодействия с преподавателями студентам нужны вебкамеры и специальные программы для проведения видеоконференций.

Еще одно предприятие, созданное студентами университета, студенческая фирма "Зеленое такси", заглушила моторы на время поиска инвесторов. Фирма идет в ногу со временем, используя экологически чистые принципы транспортировки, и старается зажечь других личным примером.

(Распространено Бюро международных информационных программ Государственного департамента США.

Веб-сайт: http://www.america.gov/ru)

"Студенческий меридиан" "Xəzər Xəbər"də

АКТУАЛЬНО



ВИКТОР САДОВНИЧИЙ: "МАЙКРОСОФТ» НАС ПОНИМАЕТ ЛУЧШЕ?"

Национальный проект «Образование» набирает обороты. Только за четыре последних года Государственной Думой принято более 20 федеральных законов в сфере образования и науки. Из них 10 – в 2007 году. ЕГЭ, бакалавр, магистр, «Болонский процесс», – слова и словосочетания, которые прочно внедрились в лексикон школьников, студентов, преподавателей и ученых. В самом разгаре реформы отечественного образования своими мыслями с нашим журналом поделился академик, ректор МГУ им. М.В. Ломоносова В.А. Садовничий.

– Виктор Антонович, ваша оценка имеющейся теперь уже в каждом университете двухуровневой (бакалавр – магистр) системы обучения и в целом влияния так называемой «Болонской декларации» на отечественную систему образования?

– Я по-прежнему убежден, что подготовка бакалавров – а это скоро начнут делать и техникумы – не должна стать главной задачей университетов. Наше предназначение в другом. Миссия университета – давать образование самого высокого уровня, готовить специалистов, магистров, аспирантов, докторантов.

Какие бы слова о положительном влиянии Болонской декларации на нашу систему образования ни произносились, специалисты хорошо понимают, что причины ее появления – не во внутренней логике развития системы образования европейских государств, а в экономико-политической ситуации сегодняшней Европы. В Европейский Союз устремилось много стран, находящихся, как их политкорректно называют, в «переходной фазе» своего развития. Их задача – воспользоваться мощью экономики наиболее развитых государств Европы и направить туда свои трудовые ресурсы. Разве у России такая цель?

Московский университет решительно за интеграцию образовательных систем, но это должно быть вдумчивое и серьезное сближение, обогащение полезным опытом.

И как же нам предлагают реформировать образование? Оказывается, все очень просто: достаточно скопировать нынешнюю европейскую систему, причем в наиболее примитивной форме.

– Стоит ли тогда идти на реформы?

– На самом деле сказать однозначно: «Болонский процесс вреден», – я не могу. Интрига кроется в темпах и попытках «натянуть» нас на некие международные шаблоны без учета специфики национальной системы образования. По большому счету, противников

у процесса интеграции нет. Но это должен быть процесс взаимоуважительный, глубоко профессиональный и максимально дипломатичный. Мы не должны, не имеем права разрушить то, чем сильна наша система образования, что составляет гордость страны.

Международное образовательное пространство – это рынок. Поэтому важно отчетливо осознавать, что у нас является конкурентным преимуществом, а что, наоборот, сковывает наши действия. Самое время прислушаться к словам известного публициста XIX века Николая Яковлевича Данилевского: «Образование не насаждается по произволу, как меняется форма одежды или вводится то или иное административное устройство. Его следовало бы не насаждать извне, а развивать изнутри. Ход его был бы медленнее, но зато вернее и плодотворнее».

А недавно один из руководителей компании «Майкрософт» сказал мне: «Если есть простая задача – мы можем решить ее в Америке. Если есть сложная задача – мы решим ее в Индии. А если есть неразрешимая задача – решить ее можно только в России». Причина, на мой взгляд, – фундаментальность нашего образования. И это нужно обязательно сохранить и, конечно, непрерывно обогащать.

– За последнее время Госдумой РФ принято довольно много законов в сфере науки и образования. Не могли бы вы прокомментировать некоторые из них?

– Среди новых законов есть такие, которые явно способствуют улучшению системы образования, а есть и вызывающие беспокойство. Например, можно только приветствовать закон об интеграции науки и образования. В соответствии с ним научные организации и учреждения высшего профессионального образования могут теперь взаимно использовать свои кадры и материально-техническую базу безвозмездно, не платя за это дополнительные налоги в бюджет.



После долгих дебатов принят закон об автономных учреждениях. Первоначальный вариант был для нас совершенно неприемлемым. В результате по предложению Российского Союза ректоров, в котором я являюсь председателем, было внесено более 80 поправок. Хотя каким-то высшим учебным заведениям новый правовой статус показался заманчивым. И на сегодняшний день 18 вузов приняли решение превратиться в АУ. Причем среди них не только какие-то малоизвестные, но и крупные классические университеты – Кубанский и Казанский, Санкт-Петербургские ЛЭТИ, ЛИТМО, Московский экономико-статистический и другие. Это, конечно, их право.

Но, по моему мнению, автономные учреждения, несмотря на свое название, гораздо дальше от собственно университетской автономии, которая сформировалась. По закону ими руководит наблюдательный совет, в котором представители вуза составляют не более трети, причем ректор и его заместители не могут входить в этот совет. Ученый совет, т.е. ведущие профессора и преподаватели, фактически отстраняются от управления университетом. В таких условиях неизбежна потеря фундаментальности науки и образования, и даже возникает риск возможной приватизации.


Также принят закон о целевых накопительных фондах (так называемый индаумент). Такие фонды имеются практически во всех развитых университетах мира. МГУ в связи с этим подсчитал – чтобы такой фонд эффективно работал в будущем (а это именно фонд будущего Московского университета), он должен накопить несколько сот миллионов долларов. Есть в уставе фонда золотое правило: его средства не расходуются; используются только его проценты и исключительно на развитие вуза. Я уверен, что выпускники МГУ, неравнодушные к судьбе своей альма-матер, откликнутся активным участием.

Даниил ИЛЬЧЕНКО

ЗАГАДКА ОСТАЕТСЯ ЗАГАДКОЙ

КОМУ УЛЫБАЕТСЯ ДЖОКОНДА?

Через пятьсот лет после создания «Джоконда» Леонардо да Винчи по-прежнему время от времени становится сенсацией. В 2005 году на ней проверяли высокие технологии: рентгеновские лучи, ультрафиолет, трехмерное сканирование, микрофлоуресцентный анализ и так далее. Результат: кроме небольшой тенденции к вспучиванию, она поживает хорошо.



Джоконда
Масло на тополиной доске, 77х53 см
Леонардо да Винчи начал картину в 1502 или 1503 году во Флоренции, работал над ней пять лет, вносил поправки в Риме в 1513 году. Он никогда с ней не расставался вплоть до самой смерти в Амбуазе (Франция) в 1519 году. «Джоконда», Лувр.

В 2008 году объявление Гейдельбергского университета попадает в новости. Рукописная запись, сделанная в 1503 году на полях книги, обнаруженной в Германии, открывает личность той, которая изображена на шедевре. Ее звали Лиза Герардини. Мадам Лиза («Монна» – сокращение от «мадонны», мадам) родилась 15 июня 1479 года во Флоренции. В 16 лет она вышла замуж за торговца шелками Франческо дель Джокондо и стала Джокондой.

До сих пор это было лишь гипотезой среди многих других: даже считалось, что это портрет любовника художника, его матери, автопортрет в женском платье... Тайна рассеялась, но почитатели красавицы могут успокоиться – она скрывает еще немало сюрпризов.

Улыбка как послание

С 1550 года некий автор говорил об «улыбке столь привлекательной, что она создавала у зрителя ощущение чего-то божественного, а не человеческого». Почему улыбается Лиза? Потому что она только что родила второго сына? Или потому, что да Винчи хочет обыграть имя ее мужа Джокондо, что означает «веселый»? А, может, потому, что художник пригласил музыкантов, чтобы развлечь ее во время позирования? Все это уже предполагалось.

Историк искусства Даниель Арасс говорит о другом, более глубоком смысле. Два хаотических пейзажа по обе стороны лица не совпадают, не склеиваются и даже находятся на разной высоте. Связью служат губы Джоконды. Мимолетная улыбка, гнездящаяся между двумя печальными панорамами. «Ты – прах, и ты станешь прахом». Так говорится в

Библии. Таково послание Леонардо: счастье длится лишь мгновение. Улыбка красавицы нечто вроде скобок. Она пришла из небытия и туда вернется. Мост и река справа усиливают эту аллегорию несущегося времени.

Скандален ли взгляд?

В Италии VXI века только женщины дурного поведения выщипывали ресницы и брови. Если бы муж Лизы получил этот портрет (художник решил сохранить его у себя), он бы от него отказался! Невозможно было представить изображение женщины в таком образе. Кроме того, Лиза не испытывает ни малейшего стыда и в упор смотрит на нас. Она изображена в три четверти, лицо слегка повернуто влево, а взгляд направлен вправо от нас. Благодаря этому Джоконда следит за нами взглядом при любом нашем перемещении. В ту эпоху это было настоящей инновацией, еще одним подвигом Леонардо.


Черная вуаль уложена на растрепанную прическу

Знак траура? Отнюдь. Эта вуаль, называемая «гварнелло», предназначалась для беременных или готовящихся к родам женщин. Она обрамляет лицо, написанное особой техникой. В ту эпоху в Италии художники часто при изображении образа ограничивались четкой цветной линией, сделанной кистью. Леонардо сделал нечто противоположное – последовательно наложил слои прозрачной краски и погрузил Лизу и декор в некий туман, «сфумато» (расплывчатость, размытость), создав иллюзию глубины, третье измерение. Контуры образа растворяются в пейзаже, но в то же время портрет как бы выходит из картины, как ни одно до тех пор написанное лицо.

Сложенные руки

Бюстовые портреты XV века обычно показывали персонаж, опирающийся на балюстраду или парапет. Этот барьер мешал зрителю ощущать близость к изображаемой личности. В конце концов, ничего ненормального в этом нет. Речь шла о благородных людях, сильных мира сего, а потому касаться их было немыслимо.


Леонардо да Винчи разрушил этот защитный барьер, показав руки Лизы, спокойно лежащие на подлокотниках кресла (которое, кстати, не имеет спинки). Препятствия между ней и нами уже нет, мы почти можем погладить ее пальцы. Это истинная революция в искусстве портрета: нас приглашают войти в картину. Правый рукав тоже имеет свое значение, отправляя нас к левому пейзажу, потом взгляд, потом улыбка, потом



левый пейзаж. И каково бы ни было место, где мы прежде всего останавливаем глаз, мы обязательно читаем послание да Винчи о преходящем времени и неизбежной смерти. Быть может, Джоконда думает о знаменитом стихе Горация: «Прими день и не любопытствуй о будущем».

"Студенческий меридиан" №7, 2008
www.stm.ru

Poeziya



QOŞMALAR

İNSAN BALASISAN...

İnsan balasısan ana bətnində,
İnsan qal dünyaya gələndən sonra.
Düşmən qabağında, dost arasında
Üzə çıx, yerini biləndən sonra.

Bekarə ox atıb, döymə dizinə,
Qiymət ver ağlınla özün özünə.
Arif ol, aldanma naşı sözünə,
Uşaqtək ağlama güləndən sonra.

Teyyub, şair sözü bir haray kimi,
Göydə şimşək kimi, yerdə çay kimi.
Ömrü başa vursan ölüvay kimi,
Yaşaya bilməzsən öləndən sonra.

YAZA BİLMİRƏM

Daha məhəbbətdən yaza bilmirəm,
Qələm götürməyə heç halım yoxdur.
Neyləsin, neyləsin can həkimləri,
Hanı dərmanım ki, mən alım, yoxdur.

Sanki yuxudayam, şirin, şipşirin,
Vallah bu yuxudan ayılmaq çətin.
Məni dindirməyin, məndən yan ötün,
Mənim də sizlərə sualım yoxdur.

TEYYUB QURBAN

İnanın, sevənlər, inanın bu dəm
Teyyubun gözünə görünmür aləm.
Daha məhəbbətdən yaza bilmirəm,
Vüsala çatmışam, macalım yoxdur.

QOCALMA

Bülbüldə bir həyətdə iydə ol,
Küknar kimi bər-bəhrəsiz ucalma.
Əməl yarat, gözəl dolan, fayda ol,
Gözləmə ki, göydən düşə üç alma.

Əzəl gündən məsləkinlə baş-başa,
Yol gedirsən, çatıb yarı yol başa.
Yaxşılığın dəymir yara-yoldaşa,
Pisliyi də bacarmazsan, bacarma.

Teyyub Qurban, söz qalmasın yarımçıq,
Yazıb-yarat, sür ömrünü, yaşa çox.
Yüz yaşında yenə demə yaşa çox,
İl üstünə il gələndə qocalma.

OXUYURAM


Uşaqlığım nağıl kimi yada düşür,
Elə bil ki, bir dastanı oxuyuram.
Öz bürcümdə ulduzumu axtarıram,
Göyə baxıb kəhkəşanı oxuyuram.

Paklığımı, saflığımı sərraf bilir,
Mən ölmüşəm-dirilmişəm, cərrah bilir.
Bundan sonra nə olacaq, Allah bilir,
Keçən günü, ötən anı oxuyuram.

Teyyub Qurban, kökdən düşməz söz rübabın,
Tellərində sevinclərin, iztirabın,
Yetmişində varaqlanır öz kitabın,
Taleyimə yazılanı oxuyuram.


Cəmiyyət

"Dünyanın bu ideyalara ehtiyacı var"



Jurnalımızın 250-252-ci nömrəsində "Middle Fast Quarterly" jurnalının redaktoru Maykl Rubinin "National Review Online" dərgisində çap olunmuş "Türkiyədə islam inqilabı mümkündürmü?" adlı məqaləsinin icmalını vermiş və tarixçi alimləri, siyasətçiləri, politoloqları bu sual ətrafında müzakirəjə dəvət etmişdik.

Xatırladırıq ki, məqalədə türk ideoloqu Fətullah Güləndən bəhs olunurdu. Həmin mövzuda olan aşağıdakı informasiyanı da oxucuların nəzərinə çatdırırıq.



Sentyabrın 16-da Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun və Liberal Demokratik Partiyasının təşəbbüsü ilə Dövlət Dumasında keçirilən konfransda məruzəçilər türkiyəli Fətullah Gülən ideyalarının dünyada mövcud konfliktləri aradan qaldırmaq üçün ən önəmli proqram olduğunu vurğulayıblar.

Ötən il ABŞ-ın müxtəlif şəhərlərində türkiyəli fikir adamı Fətullah Gülənin ideyaları və mədəniyyətlərarası dialoq təşəbbüsləri ilə bağlı konfranslar keçirilmişdi. İngiltərədə, Almaniya başda olmaqla Avropanın bir çox ölkələrində də ötən müddət ərzində analoji tədbirlər gerçəkləşdirilmişdi.

Rusiya Dumasında keçirilən "Çağdaş dünya üçün Qandinin əhəmiyyəti: tarix və sosial perspektiv" adlı konfransda iki böyük fikir adamının - Hindistan dövlətinin qurucusu Mahatma Qandi və Fətullah Gülənin ideyaları ətrafında geniş müzakirələr aparılıb. Şərqşünaslıq İnstitutunun direktoru, professor Rostislav Rıbakov bu iki fikir adamı arasında oxşar cəhətlərlə yanaşı, mühüm fərqlərin də mövcud olduğunu ifadə edib. Qandidən fərqli olaraq Gülənin siyasətçi olmadığını və bəşəriyyətin nicatını şüurlarda, həyata baxışda ciddi dəyişikliklər etməkdə və fərqli dinlər, mədəniyyətlər arasında dialoq fəaliyyətini gücləndirməkdə gördüyünü söyləyən Rıbakov türkiyəli mütəfəkkirin hər cür terrora, qeyri-insani addıma qarşı barışmaz mövqe tutduğunu vurğulayıb.

Dialoq Avrasiya Platformasının Rusiya üzrə mütəxəssisi Ali Sami Yıldırım da öz çıxışında Gülənin ABŞ-dakı 11 sentyabr terror hadisəsindən və eləcə də Beslan faciəsindən sonra hər cür zorakılıq əleyhinə birgə mübarizə aparmağa çağırdığını xatırladıb. Gülən ideyalarında islamın ədalət, gözəllik dini olduğunu və məqsədə çatmaq üçün çirkin üsullardan istifadənin məqbul sayılmadığını, müsəlmanın terrorçu, terrorçunun da müsəlman olmasının mümkünsüzlüyü fikrinin mühüm yer tutduğunu vurğulayan Yıldırım dünyamızın ciddi seçim qarşısında olduğunu xatırladıb və deyib ki, bəşəriyyət "yaradılanı Yaradandan ötrü sevmək" prinsipi ilə hər cür problemlərdən və konfliktlərdən qurtula bilər.

Rusiya Dövlət İqtisadiyyat Universitetinin professoru Leonid Sukyanin isə bu iki böyük fikir adamı haqqında çox maraqlı sözlər söyləyib: "Hər iki lider öz mədəniyyətindən çıxış edərək, yaşadıqları zamanın problemlərinin həlli yollarını ortaya qoyurlar. Qandi hinduizmin min illik ənənəsinə əsaslanıb. Gülən isə islam dininin təməl prinsipləri prizmasından zəmanəmizin problemlərinə baxıb. Gülən sadəcə müddəalar irəli sürməklə kifayətlənmir, bu problemləri və onların həlli yollarını zəmanəmizə uyğun bir şəkildə açıqlayır, çıxış yollarını göstərir. Bu gün dünyamızın Fətullah Gülən ideyalarına böyük ehtiyacı var və məhz bu cür ideyaları mənimsəyib həyata keçirməklə bəşəriyyət işıqlı sabaha qovuşa bilər".

Məruzəçilər və iştirakçılar Gülən ideyalarının təkcə ölkəsi üçün deyil, dünyamız üçün mühüm mənəvi sərvət olduğunu vurğulayıblar.

Yenidənqurma Azərbaycanın teatr mədəniyyətinə, konkret olaraqsa, teatrlara nə verdi? İlk növbədə, adamın ağlına «təmir» sözü gəlir. Lakin «təmir» situasiyanın yalnız zahiri tərəfini, üzdə olanı aşkarlayır. Çünki yenidənqurma Azərbaycan teatrında illərdən bəri qalmaqda olan problemləri bir az da kəskinləşdirdi. Məlum oldu ki, Azərbaycan teatrında nəsillər arasındakı ziddiyyətlər hələ də gündəmdədir. Bu problemi də yenidənqurmanın boynuna atmaq ən azı ədalətsizlik olardı. Çünki nəsillər arasında ziddiyyətlər hələ 50-ci illərin sonunda teatr mədəniyyətimizin aktual bir problemi kimi gündəmə gəlmişdi. Və bu problem bütün azğınlığı ilə 60-cı illərdə özünü göstərmişdi və T.Kazımova öz ideyalarını gerçəkləşdirməkdə kifayət qədər mane olmuşdu. Ən başlıcası budur ki, 60-cı illərdə bu problem öz həllini tapmamışdı və müəyyən zaman kəsimi üçün sanki konservləşdirilmişdi. Yeni teatr ideyalarının müəllifi olan T.Kazımovla yaşlı teatr sənətçiləri permanent şəkildə konfliktli vəziyyətdə idilər. Heç də əbəs deyildi ki, adətən T.Kazımovun tamaşalarının aparıcı qüvbaycanın bir çox teatr sənətçiləri dünyalarını dəyişdilər. Lakin bu heç də problemin həllinə gözlənilən təsirini göstərmədi. Yenidənqurma teatrdan islahatlar tələb edirdi, dəyişməyi tələb edirdi. Teatr da bu «islahatlar»ı yaşlı nəsli təqaüdə göndərməklə başladı. Çox tez bir zamanda Milli Dram Teatrı bir sıra yaşlı aktyorlarla vidalaşdı. Bir sıra başqa istedadlı aktyorlar da teatrdan, aşkar etiraz əlaməti olaraq, getdilər. Beləliklə, reformaların ilk təzahürü Azərbaycanda böyük çəkişmələrlə, narazılıqlarla müşayiət olundu, sanki insan faktoru bir çox məqamlarda unuduldu.

M.Əlizadə yazır ki, «yenidənqurma dönəmində teatr prosesinin elmi-nəzəri təzahürü daha əhəmiyyətli oldu. Belə ki, «yeni düşüncə» bir çox əski dəyərləri yeniləşdirib yaradıcı

Ədalət VƏLİYEV,
sənətşünaslıq namizədi

XX ƏSRİN SONUNDA MİLLİ ÖZÜNÜDƏRK PROSESİ VƏ «AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ TEATRIN YERİ» PROBLEMİNİN AKTUALLAŞMASI

(ikinci məqalə)

vələri cavan aktyorlar olurdular. T.Kazımovla yaşlı teatr sənətçiləri arasında yaşanılan ziddiyyət təkcə dünyagörüşü məsələlərinə söykənmirdi, həm də özündə sırf professional problemləri ehtiva eləyirdi. 60-cı illərdə teatr nəsilləri bir-birlərinə qarşı dözüm taktikası seçmişdilər və aqressiv, görükən mübarizə metodundan əl çəkmişdilər. Təbii ki, bu paritet üzün sürə bilməzdi və bu paritet teatrın uğur limiti tükənənə qədər, teatrın tamaşaçısı olana qədər davam edəcəkdi. Teatrdan narazılıq özünü ən ifrat formalarda büruzə verməyə başladı. 60-cı illərdə cavan sayılanlar, artıq 70-ci illərin sonunda orta yaş həddinə yaxınlaşmışdılar. Yaşlı nəslin nümayəndələri isə hələ də sənət üfüqlərində qalmaqda idilər və hətta onların sırası xeyli genişlənmişdi. Belə ki, 60-cı illərdə orta yaş nəslinə mənsub sənətçilərin çöhrəsinə artıq ahıllıq cizgiləri qonmuşdu. Digər tərəfdən də, 70-ci illərdə maraqlı gənc insanlar sənətə gəlmişdilər. Odur ki, vəziyyət daha da gərginləşməyə doğru gedirdi.

80-ci illərdə müxtəlif səbəblər üzündən Azər-

prosesə qatmaq imkanını verdi. Çılğın siyasi-ictimai proseslərin gedişatında ümumtürk mədəniyyəti, ənənəvi İslam mədəniyyəti və qabaqcıl Qərb mədəniyyətinin mənəvi və estetik dəyərlər sistemliyi bərpa olundu. Poetika məhz bu sintetik sistemlə müəyyənləşdirildi. Müəyyən mənada yenidənqurma dönəmi teatr prosesini nəzəri-konseptual baxımdan əsrin əvvəllərinə qaytardı, yeni məqsəd və vəzifələrini dərk etməyə məcbur olan teatr düşüncəsi zamanın zəncirinin qırılmış bəndlərini bərpa etməklə yanaşı, tarixi təhrifləri düzəltməyə başladı. Bu proses hələ davam etməkdədir, çünki sonrakı siyasi-ictimai, sosial-iqtisadi və dövlət quruculuğu prosesləri yenə də teatr prosesini müxtəlif xarakterli çətinliklərlə baş-başa qoyub onun inkişaf sürətini xeyli zəiflətdi» (3, s.190). Təbii ki, bu fikirlərlə razılaşmaq lazımdır. Amma yenidənqurma həm də

Azərbaycanın teatr mədəniyyətində yeni məqsəd və vəzifələri müəyyənləşdirdisə də, teatr prosesinin çoxşaxəli inkişafını təmin edə bilmədi. O, teatr prosesini nəinki zəiflətdi, hətta teatrı birdən-birə, nə qədər kobud səslənsə belə, cəmiyyətin kənarına, periferiyasına «tulladı». Bu, teatr sənətçiləri üçün, sovet dönəmində barmaqla göstərilən insanlar üçün ağır bir sınağa çevrildi. Lazımsızlıq sindromu meydana gəldi. Və bu təkcə Azərbaycan yox, Rusiya və Sovetlər Birliyinə daxil olan bütün respublikalar üçün xarakterik bir hal idi. Rusiyanın teatr industriyası çevik və elastik olduğundan haradasa bu zərbələri müəyyən qədər dəf edə bildi. Azərbaycanda isə bu industriya olmadığından teatr mədəniyyətinin onurğa sümüyündə çatlar peyda oldu, teatr iflic halı yaşadı.

Azərbaycan teatrlarında təmir işləri getdiyindən hər teatr öz tamaşalarını klublarda, müxtəlif binalarda hazırlamaq və göstərmək məcburiyyətində qalmışdı. Bu isə tamaşaların keyfiyyətini qat-qat aşağı salırdı. Çox vaxtsa elə olurdu ki, tamaşa yalnız bir baxış günü oynanılırdı. Yəni teatr kollektivi bir ay yalnız bircə gün üçün çalışırdı və həmin bu bir gün nə mətbuat, nə də teatr ictimaiyyəti üçün önəmli bir hadisəyə çevrilmirdi. Əlbəttə, biz bunları söyləyəndə müəyyən istisnaları da nəzərə alıb fikir yürüdürük. Yenidənqurma teatr nəsilləri arasındakı çəkişmələri gərginləşdirdi, teatrlarda vəzifə tutmaqla bağlı hərc-mərcliklər törətdi, kollektivlərin həyatına kəskin konfliktlər yazdı.

Amma bununla bərabər yenidənqurma yeni teatrların açılması üçün də kifayət qədər yaxşı şərait yaratdı. Bir sıra teatrlarda təmir gedə-gedə yeni teatrlar açıldı. Yox, bu yeni teatrlar üçün yeni binalar tikilmədi. Onlar sadəcə olaraq qeydiyyatdan keçib müxtəlif yerlərdə məskunlaşdılar. «Yuğ» teatrı Milli Dram Teatrının nəzdində, onun binasının dördüncü mərtəbəsində özünə yer aldı. V.İbrahimoğlu öz studiyası ilə bu məkanda güşənişin oldu. Aktyor evinin köhnə, təmirə böyük ehtiyacı olan akt zalını respublikada yeni yaranmış Gənclər teatrına verdilər. 1989-cu ildə Milli Dram Teatrında baş rejissor vəzifəsindən azad edilmiş Hüseynağa Atakişiyevi bura bədii rəhbər təyin etdilər. Yenidənqurma, əgər belə ifadə etmək mümkünsə, Azərbaycan teatr mədəniyyətində öz apogeyini yaşadı.

Lakin iqtisadi-sosial, ictimai qeyri-sabitlik şəraitində Azərbaycan teatr prosesi yanıb-sönən xırda yolka işıqlarını xatırladırdı. Teatr «hadisələrinin» ömrü yalnız bir günə sığırdı. Yenidənqurmanın dəyərlərinin və davam müddətinin qeyri-müəyyənliyi sənətçilərdə teatrın yaşayacağına inamı azaldırdı. Bu, eyni zamanda, dişarı mühitdə, ictimai-sosial vəziyyətdə bərqərar olmuş xaosla izah edilirdi. Yenidənqurmanın müstəqillik dövrünə transformasiya olunması məsələləri köklü şəkildə həll etməsə də, ictimai-siyasi həyatda müəyyən bir aparıcı xəttin mövcudluğunu aşkarladı. Azərbaycanın müstəqilliyi, azadlığı bütün xalqın fəaliyyətinin ali məqsədinə çevrildi. Bu, yenidənqurmanın xaotikliyinə bir nizam, qeyri-müəyyənliyinə bir konkretlik gətirdi, ictimai-sosial prosesləri, əgər belə demək mümkünsə, «süjetləndirdi». Hər halda, müstəqillik dövrü bir çox məsələləri, iradə cəhdlərini, ictimai-sosial və mədəni fəaliyyəti mənalandırdı.

Ədəbiyyat:

1.Bax: Talıbzadə A.A. Azərbaycan teatr tarixinin konseptual variantı // Azərbaycan. – 2002. - № 9. – s.164-170.

2.Bu barədə bax: İsrafilov İ.R. Zaman. Rejissor. Poetika. – Bakı: Mars-Print, 1999. – 273 s.

3.Əlizadə M.Ə. Teatr: seyr və sehr; milli teatr prosesi problemləri. – B.: Elm, 1998. – s. 188.

Xülasə

Bu yazı silsilə kimi düşünülmüş məqalələrdən ikincisidir və bu ikinci yazıda XX əsrin sonunda milli özünüdərk prosesi və Azərbaycan cəmiyyətində teatrın yeri probleminin aktuallaşmasının sosial-kulturoloji səbəbləri işıqlandırılır.

Резюме

Эта статья задумана второй из цикла статей и в ней освещается процесс национального самопознания в конце XX века, а также социально-культурологические причины актуальности проблемы театра в азербайджанском обществе.

Summary

This article is one of the second ones to be thought as an succession and this секонд article throws light on the process of national self-knowledge at the end of XX century and on social-cultural reasons of actuality of the роле of theatre in Azerbaijan society.

MƏDƏNİYYƏT



QƏHRƏMANLIĞA ÇEVRİLMİŞ ÖMÜR

Həyatda elə insanlar olmuşdur ki, onların əməlləri, göstərdikləri qəhrəmanlıqlar dünyalarını dəyişdikdən sonra da yaşayır, nəsildən nəslə ötürülür. Belə qəhrəmanlardan biri də ömrünü insanlığın xilası naminə qəhrəmanlıq nümunəsinə çevirmiş, yalnız doğulub boya-başa çatdığı Azərbaycanda deyil, onun hüdülarından çox-çox uzaqlarda da tanınmış, haqqında bu gün də əfsanələr gəzən Rixard Zorgedir.

Sentyabrın 22-də Bakıda məşhur kəşfiyyatçının həyat və fəaliyyətinə həsr edilmiş "Dünya tarixində Rixard Zorgenin rolu" mövzusunda V beynəlxalq simpozium keçirilmişdir. Simpoziumun təşkilatçıları bir gün əvvəl Azərbaycan Kinematoqrafçılar İttifaqında "Kəşfiyyatçı Zorge" bədii filmini təqdim etmişlər. Yaponiya-Rusiya Tarixi Əlaqələri Araşdırma Mərkəzinin prezidenti Hisaya Şiray bildirmişdir ki, film tanınmış yapon rejissoru Şinoda Masaxiro tərəfindən çəkilmiş, həm Yaponiyada, həm Rusiyada, həm də Almaniyada böyük maraqla qarşılanmışdır.

Sonra filmin rejissorunun Azərbaycan tamaşaçılarına məktubu oxunmuşdur.

Həmin gün simpozium iştirakçıları Yeni Ramanı qəsəbəsində Rixard Zorge adına 90 nömrəli məktəbə gələrək, burada qəhrəmanın həyat və fəaliyyətinə həsr edilmiş muzeylə tanış olmuş, məşhur qəhrəman haqqında özləri ilə gətirdikləri yeni materialları məktəbə təqdim etmişlər. Məktəbin direktoru Qurbantac Qazıbəyova təhsil ocağının kollektivi adından yaponiyalı və rusiyalı qonaqlara təşəkkürünü bildirmişdir.

Paytaxtın Rixard Zorge adına parkına gələn qonaqlar burada məşhur kəşfiyyatçının abidəsini ziyarət etmişlər.

ÜZEYİR HACIBƏYLİ ADINA QARABAĞ MUĞAM MƏRKƏZİ

Dahiləri bir xalq, bir ölkə yetirir, ancaq onlar bəşəriyyətə məxsus olurlar. Azərbaycan xalqının dünya musiqi mədəniyyəti tarixinə bəxş etdiyi Üzeyir Hacıbəyli də belə korifeylərdəndir. Onu təkcə öz Vətənində deyil, dünyanın hər yerində böyük hörmət və ehtiramla xatırlayırlar. İki il əvvəl uzaq Niaqara sahillərində dahi Motsartın 250 illik yubileyinə həsr edilmiş beynəlxalq musiqi festivalının Üzeyir Hacıbəylinin 1932-ci ildə yazdığı "Motsart mövzularında fantaziya" əsəri ilə açılması bunun əyani təsdiqidir.

Azərbaycanın musiqi ictimaiyyəti sentyabrın 20-də dahi Üzeyir bəyin xatirəsinə ehtiramın daha bir təsdiqinin şahidi oldu. Həmin gün Üzeyir bəyin dünyaya göz açdığı Ağcabədi şəhərində onun büstünün, bəstəkarın adını daşıyan Qarabağ Muğam Mərkəzinin və buradakı park-kompleksin təntənəli açılışı olmuşdur. Qarabağ Muğam Mərkəzi Heydər Əliyev Fondunun təşəbbüsü və Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin yerli qurumlarının dəstəyi ilə inşa edilmişdir.

Mərasimdə mədəniyyət və turizm naziri Əbülfəs Qarayev şıxış edərək bildirmişdir ki, Heydər Əliyev Fondu Azərbaycan musiqisinin təbliği, muğamlarımızın qorunaraq nəsildən-nəslə ötürülməsi istiqamətində çox ciddi işlər görür. Bu günlərdə fondun "Üzeyir dünyası" və "Azərbaycan muğam ensiklopediyası" layihələrinin təqdimatı dediklərimizə əyani subutdur. Musiqi mədəniyyəti tariximizdə xüsusi yeri olan, müasir Azərbaycan professional musiqi sənətinin və milli operanın banisi Üzeyir Hacıbəyliyə həsr olunmuş "Üzeyr dünyası" layihəsinə "Ömür salnaməsi", "Üzeyr Hacıbəyli ensiklopediyası", "Bədii və publisistik əsərləri" kitabları, "Leyli və Məcnun", "Koroğlu", "O olmasın, bu olsun" operaları və musiqili komediyalarının klavirləri, librettoları və onların CD-ləri daxildir. Bütün bunlar təkcə Üzeyir bəyin yaradıcılığına deyil, ümumilikdə Azərbaycan xalqına, onun mədəniyyətinə, musiqisinə, incəsənətinə verilən böyük və sonsuz qiymətdir.



Nazir vurğulamışdır ki, Üzeyir Hacıbəyli yaradıcılığına həsr edilmiş tədbirlər bundan sonra da davam etdiriləcək və onun zəngin irsinin gənc nəsil tərəfindən öyrənilməsi üçün səylər artırılacaqdır.

Using Literature to Teach Young Children a Foreign Language

World globalization has sparked a growing interest in the teaching of English as a foreign language (EFL) to young learners all over the world. In the last few years there has been an explosion of English classes for young learners in government and private language schools. Many programs have been published focusing on children, and most of these programs emphasize the importance of using authentic, experiential, and cognitively appropriate language activities with young children.

• According to Wright (2002), using children's literature is the most appropriate content for young learner language teaching programs in that children's literature is motivating to young learners and appropriate to their cognitive level. Forms of children's literature such as stories serve as an authentic contextual framework through which children are introduced to vocabulary and language structures and through stories children develop literacy skills which help them later in reading and writing. The view advanced is grounded in the following assumptions:

• Children learn when the curriculum is based on knowledge of child development.

• Children acquire literacy skills when they are actively involved and when the content and context of learning are meaningful and relevant.

• Children acquire literacy skills through meaningful interactions.

• Children learn when learning experiences are designed across disciplines.

• Children increase their ability to use language by becoming involved with language that is somewhat more mature than what they currently use.

Much of the impetus for using stories with young children has emerged from New Zealand. The techniques from New Zealand have captured the interest of educators around the world and have enormous applicability for EFL learners. Maria Clay and Don Holdaway are the key persons who are credited with making a significant contribution to the literacy practices in primary classrooms in New Zealand. Reading strategies that are associated with the New Zealand literacy program include: 1) shared reading; 2) predictable literature; 3) repetitive patterns; 4) chorale reading; 3) negotiating, sharing ideas and creating group products.

Shared reading captures many of the features common to the strategies advocated by authorities. Shared reading experiences can be done with poems, rhymes and chants but large print books called "Big Books" are also frequently used. Ideally the books or stories have repetitive patterns –patterns that are repeated and are also predictable. So as in the case of the popular book, "Brown Bear Brown Bear" by Bill Martin the predictable pattern is "Brown Bear, Brown Bear, What do you See?" This same phrase is repeated throughout the book and as children listen they will begin to join in and read along with the teacher. The children quickly begin to repeat the phrase and predict the next phrase that will follow. And once again referring to "Brown Bear" the phrase that follows is "Red bird, Red bird, What do you See?" Throughout the book visual clues through pictures provide an important way for children to develop meaning. As the story is read, children interact with the story and make connections related to their expe-

riences. An important aspect of the "Shared Reading Experience" is the grouping of children around the teacher on a carpet. This proximity in a teaching situation is important for several reasons. Children can see the print and focus on the words, interaction activities between the children and the print are easier, and interaction becomes more relaxed.

When children become very familiar with the book and after several readings, they will naturally begin to recognize words and actually "read" for themselves. Encouraging children to read the print and develop knowledge and understanding of the words can be done in several ways. Class "big books" can be made in which children's own illustrations replace those of the book's illustrator. Children can also make their own versions of the "books" based on the story and as children make their own "books" they begin to identify words and understand the story in a meaningful way. Vocabulary can be reinforced through activities including graphs, language experience approaches, picture dictionaries, word games, and role play. In the reinforcing activities that follow-up the initial lesson content from other subjects such as science can be integrated. For example, in "The Very Hungry Caterpillar" by Eric Carle children can learn about the life cycle of a butterfly.

Using a story based approach in foreign language instruction for young learners is advantageous in that it develops the young learner's communicative, cognitive and social skills while taking into account young learners' interests and affective needs. Many forms of literature besides books are appropriate and may be grounded in the culture of the children by using sources such as fables, oral stories and nursery rhymes. There are many wonderful books that will capture the imagine of children but a few recommendations of published books follow:

"The Little Red Hen", retold and illustrated by MichaelForeman.

"Brown Bear, Brown Bear, What do you see?" Bill Martin, Jr., Illustrated by Eric Carle.

"The Very Hungry Caterpillar Board Book" by Eric Carle.

"My Cat Likes to Hide in Boxes" by Eve Sutton.

"Goodnight Moon" by Margaret Wise Brown.

"Ten Ways to Count to Ten" by Ruby Dee.

I would like to make a few concluding remarks about the use of literature in teaching children a foreign language. I often like to talk about Eleanor Duckworth, an educator at Harvard University who studied under the venerable psychologist, Jean Piaget. Duckworth talks about "the Having of Wonderful Ideas" by children. Because children do bring to us wonderful ideas, it is up to us as teachers to help children develop and expand on their ideas, their creativity and their imagination. Children's literature is a wonderful way to do this.

Submitted by:
Kathryn NOORI

References

Noori, K. (2000). An Educational Journey at Sharjah Model School. Paper presented at Zayed University, Dubai, UAE, May 2, 2000.

Wright, A.(1995). Storytelling with Children, Oxford University Press.

Noori, K. (2000). An Educational Journey at Sharjah Model School. Paper presented at Zayed University, Dubai, UAE, May 2, 2000.

ELM

Azərbaycanlı alim Lütfi Zadənin yeni elmi nəzəriyyəsi

Qeyri-səlis məntiq nəzəriyyəsi ilə bütün dünyada məşhur olan azərbaycanlı alim Lütfi Zadə ikiqat qeyri-müəyyənlik nəzəriyyəsini irəli sürüb. Alim yeni nəzəriyyənin əsaslarını bu günlərdə Finlandiyanın Helsinki şəhərində keçirilən qeyri-səlis sistemlərin və Soft kompütinqin tətbiqi üzrə VIII beynəlxalq konfransda açıqlayıb. Bu barədə APA-ya məlumat verən Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Rafiq Əliyev konfransa 30-a yaxın ölkənin nüfuzlu alimlərinin qatıldığını bildirib: "İkiqat qeyri-məntiqi nəzərə alan ikiqat qeyri-müəyyənlik nəzəriyyəsinin hələ başlanğıcı qoyulub. Qeyri-səlis məntiqə əsaslanan idarəetmə sistemləri, intellektual robotlar, intellektual informasiya sistemləri və sair istiqamətlər üzrə fikir mübadiləsi aparıldı. Yeni nəzəriyyənin əsas elmi istiqamətləri, tədqiq sahələri müəyyənləşdirildi. İkiqat qeyri-müəyyənlik nəzəriyyəsi elmin real həyata bir addım da yaxınlaşmasına yardım edəcək".



NAXÇIVANDA ARXEOLOJİ TƏDQİQATLAR

Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun alimləri Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda arxeoloji tədqiqatlar aparmışlar.

İnstitutdan bildirmişlər ki, ərazinin Oğlanqala və Ovçular təpəsi yaxınlığında qədim nekropol qeydə alınmışdır. Həmin nekropolda alimlər kurqanın qazıntısı nəticəsində orta tunc dövrünə aid əmək alətləri, saxsı qablar aşkar etmişlər.

Muxtar Respublikanın Kəngərli rayonunun Şahtaxtı kəndində isə institutun alimləri arxeoloji ekspedisiyanı davam etdirirlər.

Hazırda arxeoloqlar qədim yaşayış yeri Çovurqalada tədqiqat aparırlar.

ALTERNATİV ENERJİ MƏNBƏLƏRİ İLƏ BAĞLI LAYİHƏLƏR

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fizika İnstitutunda Amerika Birləşmiş Ştatlarının Bakıdakı səfirliyinin regional ekologiya, elm, texnologiya və səhiyyə üzrə baş katibi Kamila D.Hil və səfirliyin iqtisadçısı Səlim Aritürklə görüş keçirilmişdir.

Akademiyadan AzərTAc–a bildirmişlər ki, görüşdə "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə edilməsi üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı görülən işlər və ölkəmizdə alternativ enerji mənbələri ilə bağlı reallaşacaq layihələr müzakirə olunmuşdur.

İnstitutun direktoru, AMEA-nın birinci vitse-prezidenti, akademik Arif Həşimov Rumıniyanın Piteşti şəhərində akademik Çingiz Cuvarlının xatirəsinə həsr olunmuş "Energetikanın texniki və fiziki problemləri" mövzusunda keçirilən IV beynəlxalq konfransın əhəmiyyəti haqqında danışmışdır.

A.Həşimov alternativ enerji mənbələri ilə bağlı respublikamızda müsbət təcrübənin mövcudluğunu və bir sıra ölkələrdə günəş, külək və digər təmiz və bərpa olunan enerji mənbələrindən istifadənin ildən-ilə genişləndiyini nəzərə çatdırmışdır.

Kamila D.Hil təmsil etdiyi dövlətin Azərbaycanda alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı çərçivəsində həyata keçirilən işləri dəstəkləməyə, yaxından kömək göstərməyə hazır olduğunu bildirmişdir.

Azərbaycanın əlverişli təbii şəraiti ilə kifayət qədər alternativ və bərpa olunan enerji potensialına malik olduğunu bildirən AMEA-nın müxbir üzvü Kərim Ramazanov ölkədə istifadə üçün ən yararlı günəş və külək enerjisi olduğunu, bu sahədə dünya təcrübəsindən geniş istifadənin zəruriliyini qeyd etmişdir

SAĞLAMLIQ

ŞOKOLAD ƏVƏZİNƏ QOZ

Uzun ömrün təminatçısı



Hələ qədim zamanlardan qozun müalicəvi xüsusiyyətləri geniş məlumdur. Ağacın bütün hissələri belə keyfiyyətlərə malikdir. Qoz həm dadlı, həm də xeyirlidir.

Qoz ağacının yarpağından xalq təbabətində yaraqovuşdurucu kimi geniş istifadə edilir.

Qoz yarpağı ilə cökə çiçəyini (1:5 nisbətdə) dəmləyib, dəri xəstəliklərinə qarşı istifadə edirlər.

İshal, qastroenterit (mədə və bağırsaqların selikli qişasının iltihabı) zamanı, eləcə də həzmetməni yaxşılaşdırmaq məqsədilə yarpağın saplaqlarını təmizləyib, bir stəkan suda dəmləyir və gün ərzində hissə-hissə içirlər.

3-5 xörək qaşığı həcmində yarpağı yarım litr suda 15 dəqiqə dəmlədikdən sonra soyudub süzür və istifadə edirlər. Belə dəmləmə yanıq zamanı müsbət nəticələr verir.

Qozun üst qabığı əla təbii boyadır. Saçları onunla boyadıqda gözəl və uzunmüddətli şabalıdı rəng alınır.

Yaşıl meyvə qabığını tünd rəngli maye alınanadək 3-4 saat suda qaynadırlar. Alınmış məhlulu süzür, sonra isə qatı cövhər alınanadək buxarlandırırlar. Bunun üzərinə iki hissə bitki yağı əlavə edib, suyu tam buxarlananadək yenidən qaynadırlar. Nəticədə tündqonur rəngli krem alınır və o, saça yaxılır. 20-30 dəqiqə keçdikdən sonra saçları yumaq olar.

Yunan qozunun ləpəsində 70 faiz yağdan əlavə çoxlu dəmir və kobalt da var. Onun tərkibində askorbin turşusu qara qarağatda və sitruslarda olduğundan çoxdur.

Qoz ləpəsi A və E vitaminləri, eləcə də mikroelementlərlə – yod və mislə zəngindir.

Qozun ləpəsində çox az miqdarda natriumun olması böyrək ağrıları zamanı onun əhəmiyyətini daha da artırır.

Payızda və qışda qoz ümumi möhkəmləndirici vasitə kimi mütləq uşaqların yemək rasionuna əlavə edilməlidir.

Avitaminoz, eləcə də dəmir çatışmazlığı zamanı (anemiya) qozdan istifadə olunmalıdır.

Qozun tərkibində sink kimi çoxlu mikroelementlər var. Ona görə də, Avropa dietoloqlarının fikrincə, uşaqlara şokolad əvəzinə qovurulmamış qoz vermək lazımdır.

Mütəxəssislərin rəyinə görə, qozun qida rasionuna daxil edilməsi insanların sağlam və uzun ömrünün təminatıdır.

Gənclər arasında siqaret çəkənlərin sayı artıb


2008-ci ildə Azərbaycanda gənclər arasında siqaret çəkənlərin sayı artıb. Bu qənaətə «ELS» Müstəqil Araşdırmalar Mərkəzi 6 ali, 14 orta məktəbdə apardığı araşdırma nəticəsində gəlib.

Mərkəzin rəhbəri İradə Yaqubovanın sözlərinə görə, 800 tələbə və şagirdin cəlb olunduğu sorğuda respondentlərin 34 faizi siqaret çəkdiyini bildirib. Ötən il oğlanlar arasında siqaret çəkənlərin sayı 39 faiz olmuşdusa, bu il bu rəqəm 46 faizə çatıb. Siqaret çəkən qızların sayı isə 8 faizdən 17 faizə çatıb.

Respondentlərin 52 faizi siqaret tüstüsünə daha çox ictimai yerlərdə məruz qaldığını qeyd edir. Tədris müəssisələrində, ictimai nəqliyyatda, ailədə, iş yerlərində də siqaret tüstüsündən narahat olanların sayı az deyil.

İradə Yaqubova deyir ki, onlar «Sağlamlığına, gələcəyinə, firavanlığına yox demə!» adlı kampaniya çərçivəsində siqaret əleyhinə müxtəlif tədbirlər həyata keçirmişlər.


«ELS» Müstəqil Araşdırmalar Mərkəzi bu tədqiqatı səhiyyə, gənclər və idman nazirliklərinin iştirakı ilə aparıb.



Səadət AKIFQIZI

İDMAN

Paralimpiadada böyük qələbə



Çinin paytaxtı Pekində keçirilən XIII Yay Paralimpiya Oyunları başa çatıb. 11 gün davam edən yarışda 148 ölkədən 4200-dən çox idmançı 20 növdə 472 dəst medal uğrunda mübarizə aparıb.

Paralimpiadada Azərbaycanın şərəfini 18 idmançı qoruyub. Pekinə 7 cüdo, 7 atlet, 3 pauerliftinqçi və 1 güllə atıcısı ilə yollanan yığmamız Vətənə 10 medalla dönmüşdür. Həmvətənlərimiz 2 qızıl, 3 gümüş və 5 bürünc medal qazanıblar. Maraqlıdır ki, yay paralimpiya oyunlarında yalnız cüdoçularımız və atletlərimiz fəxri kürsüyə yüksəliblər. Cüdoçular İlham Zəkiyev (100 kq) qızıl, Kərim Sərdarovla (100 kq) Tofiq Məmmədov (90 kq) gümüş, Ramin İbrahimov (60 kq) isə bürünc mükafata sahib çıxıb. Atletlərimizdən ən yüksək nəticəni nüvə itələmə yarışında bütün rəqiblərini geridə qoyan Oluxan Musayev göstərib. Zeyniddin Bilalov (üçtəkanla tullanma) 2-ci, Oleq Panyutin (hündürlüyə tullanma), Vladimir Zayets (üçtəkanla tullanma), Vüqar Mehdiyev (200 m məsafəyə qaçış), eləcə də Rza Osmanov (400 m məsafəyə qaçış) 3-cü pillədə qərarlaşıblar.

Azərbaycan yığması medalların əyarına əsasən 38-ci, medalların kəmiyyətinə görə isə 32-ci olub. Bu, 4 il öncə Afinada keçirilən analoji yarışın nəticələrindən yüksəkdir. Yunanıstan paytaxtında 11 idmançımız 2 qızıl, 1 gümüş, 1 bürünc medal qazanmışdı. XII Afina Paralimpiadasında Azərbaycan medal qazanan ölkələrin siyahısında 136 kollektiv arasında 45-ci yerlə kifayətlənmişdi.

Sentyabrın 22-də Azərbaycan Prezidenti İlham Əliyev Prezident sarayında XIII Pekin Paralimpiya Oyunlarında ölkəmizi təmsil edən idmançıları və onların məşqçilərini qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev idmançıları Pekin Paralimpiya Oyunlarında qazanılmış böyük qələbə münasibətilə ürəkdən təbrik edərək demişdir: Müstəqil Azərbaycanın tarixində ilk dəfədir ki, bizim paralimpiyaçılarımız 10 medal qazanmışlar. Onlardan 2-si qızıl, 3-ü gümüş və 5-i bürünc medaldır. Bu, çox böyük nailiyyətdir, çox böyük qələbədir. Bu onu göstərir ki, bizim idmançılarımız çox yüksək peşəkarlığa malikdirlər, onlarda ruh yüksəkliyi vardır. Baxmayaraq ki, Paralimpiya Oyunları çox çətin bir yarışdır, onlar yüksək nəticələr göstərməklə həm öz imkanlarını bütün dünyaya sübut etmişlər, həm də Azərbaycanın şöhrətini yüksəklərə qaldırmışlar.


Sonra Prezident İlham Əliyev XIII Pekin Paralimpiya Oyunlarında göstərdikləri yüksək nailiyyətlərə görə idmançılara və onların məşqçilərinə pul mükafatları təqdim etmişdir.

Paralimpiya Oyunlarının qalibi, cüdo üzrə ikiqat olimpiya çempionu İlham Zəkiyev dövlətimizin başçısına təşəkkür edərək dedi: Mən paralimpiyaçılar adından və milli komandanın kapitanı kimi idmançılarımızın adından Sizə təşəkkürümü bildirirəm. Bizi yola salanda Sizə söz verdik ki, qələbələrlə qayıdacağıq. Bu gün biz üzüağ Sizin qarşınızdayıq. Söz verdiyimiz kimi, bu qələbəmizi Sizə həsr edirik. Çalışacağıq ki, inşallah, London Paralimpiya Oyunlarından da Vətənə yüksək nailiyyətlərlə dönək. Biz bu qələbələrə görə xüsusilə Sizə minnətdarıq. Milli Paralimpiya Komitəsinin və Neftçi-İdman Sağlamlıq Mərkəzinin rəhbərliyinə minnətdarlığımızı bildiririk.

USAQ DÜNYASI

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi

"DÜNYA" MƏKTƏBİNDƏ BİLİK BAYRAMI



Sentyabr ayının 15-də bütün məktəblər kimi "Dünya" məktəbi də Bilik gününü qeyd etdi. Məktəb yenidən doğma qoynunu öz sevimli balalarına açdı. Yenə həyəcan dolu baxışlar, yenə şən uşaq səsləri ilə dolu məktəb həyatı...

Valideynlərinin əllərindən tutaraq məktəbin həyətinə toplaşan, həyəcanla ilk zəngi gözləyən balaca birinciləri və eləcə də bütün məktəb şagirdlərini bu il son dəfə ilk zəngin həyəcanını yaşayan XI sinif şagirdləri Qaracalı Ülkər və Səma Namazlı salamladılar.

Onlar I sinifdən oxuduqları "Dünya" məktəbi haqqında ən xoş fikirlərini belə bildirdilər:

Bir ildən sonra biz- bu günkü şagirdlər artıq universitet tələbələri olacağıq. "Dünya" məktəbinin bizə verdiyi təhsil, təlim, tərbiyə ilə istədiyimiz ali məktəbin tələbəsi adını qazanacağımıza inanırıq. Sizə də uğurlar arzulayırıq əziz birincilər, əziz şagirdlər!

Sonra isə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı məktəbin şagirdlərini və müəllim kollektivini bilik bayramı münasibətilə təbrik etdi, yeni dərs ilində onlara uğurlar arzuladı.







Məktəbin qazandığı uğurlardan danışan rektor qeyd etdi ki, yay tətili günlərində şagirdlər ABŞ və İngiltərəyə kurslara göndərilmişdir. O, qarşıdakı tədris ilində "Dünya" məktəblilərini gözləyən yeniliklərdən də bəhs edərək dedi ki, bu il məktəbdə yeni sinif otaqları açılmışdır, yeni kompüter zalı şagirdlərin istifadəsinə veriləcəkdir.

"Dünya" məktəbinin direktoru Nailə xanım İsayeva da bütün məktəbliləri salamlayaraq, balaca "birinci"lərə vəsiqələr təqdim etdi. Bir neçə valideyn də məktəb haqqında xoş fikirlərini bildirdilər. Sonda məktəbin rəqs qrupu "Qazağı" və "İnciçiçəyi" rəqsi ilə çıxış etdi.



Mədinə RZAYEVA,
"Dünya" məktəbinin müəllimi





DOQQUZ YAŞLI İLK AVROPA ÇEMPİONU



Polşanın Şeszin şəhərində bu ilin avqust ayında keçirilmiş yüzxanalı dama üzrə Avropa birinciliyi yarışlarında Azərbaycanı dörd yaş qrupunda beş idmançı təmsil edirdi. "Neftçi" İdman-Sağlamlıq Mərkəzinin yetirməsi, Bakının Xətai rayonundakı 165 nömrəli məktəbin 4-cü sinif şagirdi Famil Kamilli 15 ölkədən gəlmiş 24 idmançı arasında öz yaş qrupunda birinci yeri tutmuşdur.

O, on bir görüşün səkkizini qələbə, üçünü isə heç-heçə ilə başa vuraraq, 19 xalla qızıl medala layiq görülmüşdür. Bu, Familin fərdi yarışlarda həm özünə, həm də Azərbaycan damasına qazandığı ikinci qızıl medal idi; beləliklə, doqquz yaşlı çempion "ikiqat Avropa çempionu" tituluna sahib oldu.

...Famil 1999-cu ildə Culfa rayonunun Göydərə kəndində zəhmətkeş ailəsində anadan olmuşdur. Valideynlərinin işi ilə əlaqədar ailə Bakıda məskunlaşıb. Balacalığından Familin qeyri-adi istedadı valideynlərinin diqqətindən yayınmayıb. Ailənin asudə vaxtlarında oynanılan stolüstü oyunlardan damaya meylini görən atası Müşfiq onu böyük dama mütəxəssisi Pərviz Həsənovun yanına aparmış və beləliklə də, Famil 5 yaşında ikən dama üzrə dəfələrlə Azərbaycan çempionu, beynəlxalq dərəcəli usta Pərviz Həsənovun rəhbərliyi altında məşqlərə başlayıb. Müəllimi cəmi beş aydan sonra onun Bakı şəhər birinciliyində qüvvəsini sınamasına imkan yaradıb. Famil sınaqdan uğurla çıxıb. 64 xanalı dama üzrə yarışda birinci oyunda uduzsa da, sonra bütün rəqiblərini geridə qoyaraq, on üç yaşlılar arasında çempion olub, birinci dərəcəli damaçı adına layiq görülüb. Yaşıdlarından qeyri-adi qabiliyyəti, məntiqi düşüncəsi, möhkəm hafizəsi ilə fərqlənən Famil sonrakı şəhər və respublika yarışlarında da uğurlar qazanır, beşqat Bakı, altıqat Azərbaycan çempionu olur və indi ustalığa namizəddir.

Famil 6 yaşından beynəlxalq yarışlarda iştirak edir və hər dəfə uğur qazanır. 2006-cı ildə Estoniyanın paytaxtı Tallində keçirilmiş yeniyetmə və gənc damaçıların yüzxanalı dama üzrə Avropa çempionatında on



yaşa qədər idmançılar arasında ölkəmizi Famil təmsil edib. İsveçrə sistemi ilə klassik vaxtla yarışda o, 26 damaçıdan ən kiçiyi (7 yaşında) olsa da, dördüncü yeri tutub. Sürətli dama üzrə yarışda isə polşalı Daniel Qlimlə 1-2-ci yerləri bölüşüb, lakin əmsallar cədvəlinə görə gümüş medalla kifayətlənib. Sonra yenə Tallində ikinci Estoniya dama festivalında yüzxanalı dama üzrə yarışda yaşıdları arasında ən yüksək pilləyə qalxıb.





2008-ci ilin aprel ayında Rusiyanın Kaliningrad şəhərində 64 xanalı dama üzrə Avropa çempionatından Famil vətənə iki medalla qayıdıb. klassik vaxtla yarışda bürünc, sürətli dama üzrə yarışda isə qızıl medal qazanıb. Bu, Azərbaycan damasının tarixində fərdi yarışlarda qazanılan ilk qızıl medal idi. Ümumiyyətlə, Famil in qazandığı uğurların hər biri bütün cəhətlərdən Azərbaycan damasının tarixinə yazdığı yeni səhifələrdir.

"Neftçi" İdman-Sağlamlıq Mərkəzinin direktoru Sadıq Sadıqov Familə həmişə maddi və mənəvi kömək göstərir.

Atası Müşfiq bütün beynəlxalq yarışlarda Famili müşayiət edir, psixoloji dəstəyi ilə onu yeni qələbələrə ruhlandırır. Bu səfərlərin baş tutması üçün Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev, şirkətin Təhlükəsizlik Xidməti İdarəsinin rəisi Rəşad Əliyev şərait yaradır, ümumiyyətlə, Famildən diqqət və qayğılarını əsirgəmirlər.

Bariz ƏSƏDOV





Tapmacaların cavabı

1 yazıb, oxumaq

2 il, aylar, günlər, gecə və gündüz

3 kitab

4 fəsillər

5 sübh

6 çay

7 külək

8 təqvim

9 tovuz quşu

ƏDƏBİYYAT LÜĞƏTİ

Gəlin, öyrənək!

ƏBCƏD - Şərq ədəbiyyatlarında bir hadisənin, bir işin tarixini bildirmək üçün işlənən və rəqəmləri hərflərdən ibarət olan hesabdır. Əbsəd hesabında ərəb əlifbasının hər hərfi müəyyən rəqəmlə bağlıdır: a-1; b-2; c-3; d-4; h-5; v-6; e-7, h-8; t-9;i-10; k-20; l-30; m-40; n-50; s-60; ayn - 70); f-80; s-90; q-100; r-200; ş-300; t-400; s-500; x-600; z-700; z-800; z-900; c-1000). Ərəb əlifbasında bəzi hərflərin (t,s,z və s.)yazılışca bir neşə şəkli vardır. Odur ki, burada da həmin hərflərin bir neçə rəqəm bildirməsi onların yazılışı ilə əlaqədardır və indicə biz bunun şahidi də olduq.

ƏDƏBİYYAT NƏZƏRİYYƏSİ - ədəbiyyatşünaslığın bölmələrindən biri. Ədəbiyyatın növləri, formaları, təsvir vasitələri haqqında elm. Keçmişdə Azərbaycanda və Şərqin bir çox başqa məmləkətlərində buna **qəvaidi-ədəbiyyə**, yəni ədəbiyyat qayda-qanunları deyilibdi.

ƏDƏBİYYAT TARİXİ - ədəbiyyatşünaslığın bir bölməsi olmaqla bədii ədəbiyyatın yaranma tarixini, onun xalqın və ümumiyyətlə bəşər cəmiyyətinin tarixi inkişafı ilə əlaqəsini öyrənib izah edir.

ƏDƏBİ TƏNQİD - ədəbiyyatşünaslığın bir bölməsi olan ədəbi tənqid bədii ədəbiyyatın müasir xalq həyatı üçün, xalqın mənafeyi və tələbləri baxımından əhəmiyyətini öyrənir. Ədəbi tənqid bəşəriyyətin bədii əsərlərdə yaratmış olduğu mənəvi zənginliyi açıb göstərir və tərbiyə işində ədəbiyyatdan layiqincə istifadə etməkdə xalqa kömək edir.

ƏFSANƏ - hadisələri, əşyaları real yox, möcüzəli şəkildə təsvir, təqdim edən əfsanələrə yunanlar "paradosis", almanlar "zaqen", fransızlar və ingilislər "tradision", ruslar "predaniye","leqenda" və s. deyirlər. Bu janrın ən qədim adı latın dilində "leqenda" olmuşdur. Əfsanələrin növləri, əsasən, bunlardır: zoonimik əfsanələr; bu əfsanələr heyvan və quşlardan bəhs edir; toponomik əfsanələr; bu növə daxil olan əfsanələrdə şəhər, kənd, qala, dağ, bürc və s.-dən danışırlar; kosmoqonik əfsanələrdə səma cisimlərindən söz açılır.

ƏKS - ədəbi əsərdə təkrar üsullardan biri. Cümlənin, yaxud misranın birinci yarısı ilə ikinci yarısının yerini dəyişməklə maraqlı bir ifadə tərzi alınır ki, bu da ədəbiyyatda "əks" adlanır. Misal üçün: alçala-alçala yüksələnləri; yüksələ-yüksələ alçalan gördüm (Hüseyin Arif).


ƏLİFLEYLA - mənası: min bir gecə. Orta əsr ərəb ədəbi abidəsi olan "Min bir gecə" nağıllarının ərəbcə adı.

ƏNƏNƏ - bir və ya bir neçə sənətkarın yaradıcılığının sonrakı yazıçılar tərəfindən öyrənilən və inkişaf etdirilən ideya-sənətkarlıq xüsusiyyətləri.


ƏRUZ VƏZNİ - "əruz" sözünün ərəb dilindəki mənası "şeir vəznlərinin cəmi", "şeir vəznləri haqqında təlim" deməkdir. Əruz vəznini ilk dəfə VIII yüzillikdə sistem halına salan ərəb filoloqu Xəlil ibn Əhməd olmuşdur.

Hazırlayanı:
Bəhlul ABDULLA

KİTABXANAMIZIN YENİ KİTABLARI



Paşayev Ə. Pedaqogika: yeni kurs / Ə. Paşayev, F. Rüstəmov. – 2-ci nəşr. – Bakı: Nurlan, 2007. – 464 s.




Downing D. Algebra, the easy way. – 4th ed. – Hauppauge, N.Y.: Barron's, 2003. – 392 p.
– ISBN 0-7641-1972-9



Rüstəmov F. Ali məktəb pedaqogikası (magistratura pilləsi üçün dərslik) / F. Rüstəmov, T. Dadaşova. – Bakı: Nurlan, 2007. – 568 s.



The language of literature. – Evanston, Ill.: McDougal Littell, 1997. – 882 p.
– ISBN 0-395-73101-X




Promoting regional cooperation in the development of insolvency laws reforms. – Mandaluyong City, Philippines: Asian Development Bank, 2008. – 81 p. – ISBN 978-971-561-685-0



Hendricks R. Latin made simple. – New York: Doubleday, 1992. – 283 p.
– ISBN 0-385-41339-4



Research study on poverty-specific purchasing power parities for selected countries in Asia and the Pacific. – Mandaluyong City, Philippines: Economics and Research Dept., Asian Development Bank, 2008. – 96 p.
– ISBN 978-971-561-659-1



Precalculus: graphical, numerical, algebraic / F. Demana ... [et al.]. – 5th ed. – Reading, MA: Addison-Wesley, 2000. – 966 p.
– ISBN 0-201-69974-5



Consulting services operations manual. – Mandaluyong City, Philippines: Asian Development Bank, 2008. – 140 p.
– ISBN 978-971-561-657-7



International workshop on improving e-learning policies and programs: proceedings. – Mandaluyong City, Philippines: Asian Development Bank, 2008. – 185 p.
– ISBN 971-561-557-0

Hazırlayanı: Lyudmila SOTOVA

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.
"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə
sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -
müsabiqələr və s. könlünüzcə olacaq.
"Xəzər Xəbər" gənclərin və oxuyan,
düşünən hər kəsin dərgisidir.
"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın
hər yerində oxuyurlar.
"Xəzər Xəbər"i siz də oxuyun!
"Xəzər Xəbər"ə siz də yazın!
"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
"Xəzər Xəbər" ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org